HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

№ 26 (920) ■ 18 iyul 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Azərbaycanda xalq-iqtidar birliyini heç bir qüvvə sarsıda bilməz

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə iclas keçirilib.

İclasda çıxış edən dövlətimizin başçısı iyulun 3-də və 10-da Gəncə şəhərində törədilmiş qanlı cinayətləri dövlətçiliyimizə qarşı törədilmiş terror aktı kimi qiymətləndirərək, terrorçu qruplaşmanın Azərbaycanda sabitliyi pozmaq istədiyini, cəmiyyətdə gərginlik yaratmaq və insanları qorxutmaq məqsədi güddüyünü bildirib: «Bu terror aktları dini şüarlar altında törədilmişdir. Bu, özlüyündə İslam dininə qarşı ən böyük cinayətdir. Çünki İslam sülh, mərhəmət dinidir. Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli, dini dəyərlərini daim qoruyur. Azərbaycan İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir. Bildiyiniz kimi, ötən il Azərbaycanda «İslam Həmrəyliyi İli» elan olunmuşdur, İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu il Naxçıvan İslam mədəniyyətinin paytaxtı şəhəridir. Bir neçə il əvvəl Bakı şəhəri bu şərəfli ada layiq görülmüşdür. Müsəlman ölkələrini birləşdirən İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini sahədə görülən işlərə ən yüksək qiymət verir. Azərbaycan dövlətinin xətti və dəstəyi ilə dövlət vəsaiti hesabına bizim tarixi-dini abidələrimiz tam bərpa olunub, yenidən qurulub, yeni məscidlər tikilib. Yəni, bir daha demək istəyirəm ki, bu cinayəti dinimizə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayət törədiblər. Bu cinayətkarlar müsəlman deyillər və bu cinayətlər cavabsız qalmır. Cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. Azərbaycan dövləti və Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək. Bütün Azərbaycan xalqı bu qanlı cinayətləri birmənalı olaraq pislədi və bu cinayətləri törədənlərə qarşı öz nifrətini ifadə etdi».

Prezident İlham Əliyev qətiyyətlə bəyan edib ki, bu terrorda əli olan bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar: «Bizim müstəqillik tariximizdə ölkəmizə qarşı bir neçə dəfə təxribatlar törədilmişdir, o cümlədən silahlı təxribatlar, terror aktları, dövlət çevrilişlərinə cəhd. Onların biri də baş tutmadı. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycanda xalq-iqtidar birliyi var. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm, xalq-iqtidar birliyi sabitliyimizin əsas şərtidir. Xalq-iqtidar birliyini heç bir qüvvə - nə xarici, nə daxili qüvvə sarsıda bilməz. Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz. Bizi tutduğumuz yoldan heç kim döndərə bilməz. Azərbaycanın müasir tarixi mənim dediklərimi dəfələrlə sübut edib. Kim ki, bizə qarşı çirkin niyyətlərlə hərəkət edib, özü bu hərəkətlərin qurbanı olub. Əvvəllər də belə olub, bu gün də belədir, bundan sonra da belə olacaq».



Bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar, məhkəmə qarşısında, ədalət qarşısında, xalq qarşısında cavab verəcəklər

Azərbaycanda təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğunu deyən Dövlətimizin başçısı bildirib ki, respublikamız dünya miqyasında ən təhlükəsiz və bütün sahələrdə sürətlə inkişaf edən ölkə kimi qəbul olunur: «Ona görə, əlbəttə ki, bizim uğurlarımıza kölgə salmaq, siyasətimizə təsir etmək istəyən qüvvələr müxtəlif üsullardan istifadə edirlər. Bizə qarşı çirkin kampaniyalar aparılır, qarayaxma, şər-böhtan kampaniyaları. Yalan, iftira üzərində qurulmuş bu kampaniyaların heç bir səmərəsi olmur. Azərbaycan xalqı bu yalanlara, bu böhtanlara inanmır. Azərbaycan xalqı öz rəhbərliyinə inanır. Bu il keçirilmiş prezident seçkiləri bunu bir daha bütün dünyaya əyani şəkildə sübut etdi. Bizə qarşı müxtəlif xarici mərkəzlərdən idarə olunan media qaralama kampaniyası aparılır. Bunun da heç bir səmərəsi olmur. Özünü hüquq müdafiəçisi adlandıran bir neçə qeyri-hökumət təşkilatı Azərbaycana qarşı gecə-gündüz şər-böhtan kampaniyası aparır. Bunun da nə ölkə daxilində, nə də ki, xaricdə heç bir təsiri olmadı. Bizim xarici əlaqələrimiz genişlənir. NATO-nun bu günlərdə keçirilmiş Zirvə görüşü bizim nə qədər yüksək hörmətə malik olduğumuzu bir daha sübut etdi».

Prezident İlham Əliyev ölkəmizə qarşı aparılan qaralama cəhdlərinin əbəs olduğunu heç bir qüvvənin bizim siyasətimizə, iradəmizə təsir etməyəcəyinə əminliyini ifadə edib. Bildirib ki, Azərbaycan dövləti bu dəfə də öz gücünü göstərib və göstərəcəkdir. Bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar, məhkəmə qarşısında, ədalət qarşısında, xalq qarşısında cavab verəcəklər. Bunu təmin etmək üçün bizim kifayət qədər gücümüz, imkanlarımız var. Müstəqil ölkəmiz daim inkişaf, tərəqqi yolu ilə gedəcək. Biz bundan sonra da öz siyasətimizi aparacağıq, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik.

Sonra hüquq-mühafizə orqanlarının rəhbərləri törədilən cinayətlərlə bağlı həyata keçirilən əməliyyat-axtarış tədbirləri və atılacaq addımlar barədə dövlətimizin başçısına məruzə ediblər.

# Azərbaycan dövləti dünyada sülhə və inkişafa dəstəyini əsirgəmir

İyulun 12-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Tədbirdə çıxış edən dövlətimizin başçısı deyib: «Cənab baş katib, xanımlar və cənablar. Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynayır. 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət edirlər. 2018-ci ilin yanvar ayından Azərbaycan Qətiyyətli Dəstək missiyasındakı hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırıb. Azərbaycan bir neçə dəfə Əfqanıstan Milli Ordusu üçün Etimad Fonduna maliyyə dəstəyi göstərib. Biz Azərbaycanda Əfqanıstan Ordusunun şəxsi heyəti üçün təlimlər təşkil edirik. Özündə 200-dən çox ictimai xidməti birləşdirən «ASAN xidmət» Əfqanıstanda tətbiq olunur. Azərbaycan Qətiyyətli Dəstək missiyasına nəqliyyat və logistik dəstək də göstərir. Ötən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi bu missiyaya tranzit dəstəyi göstərilməsinə böyük dərəcədə kömək edib. Ötən il Azərbaycan «Asiyanın Qəlbi - İstanbul Prosesi»nə həmsədrlik, keçən ay isə Beynəlxalq Təmas Qrupunun toplantısına ev sahibliyi edib.

Ermənistanın təcavüzündən əziyyət çəkən və bu təcavüz nəticəsində beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunmuş, bir milyon soydaşına qarşı məlum acınacaqlı etnik təmizləmə törədilmiş Azərbaycan işğalın və dağıntının iqtisadi və humanitar nəticələrini yaxşı anlayır. Azərbaycan NATO və bu təşkilatın üzv dövlətləri tərəfindən ölkəmizin siyasi müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və Ermənistanla münaqişənin bu prinsiplərə əsaslanan həllinə verdiyi davamlı dəstəyi yüksək qiymətləndirir.

Azərbaycan Əfqanıstanın üzləşdiyi təhlükəsizlik təhdidlərinin aradan qaldırılması, ölkədə sülh və inkişafın əldə edilməsi işinə köməyini bundan sonra da davam etdirəcək».

# Avropa İttifaqı Azərbaycanla tərəfdaşlıq əlaqələrinə böyük önəm verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsselə səfəri çərçivəsində Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub. Söhbət zamanı ölkəmizin Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulanıb, regional təhlükəsizlik və yeni çağırışlar haqqında fikir mübadiləsi aparılıb.

Donald Tusk Azərbaycanın dünyəvi və müasir cəmiyyət quruculuğu sahəsində müsbət təcrübəyə malik olduğunu qeyd edib. Söhbət zamanı ölkəmizdə insan haqları ilə bağlı vəziyyət, bu sahədə həyata keçiriləcək Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı barədə məsələlər müzakirə olunub.

Sonra «Tərəfdaşlıq prioritetləri» sənədinin paraflanması mərasimi keçirilib. Sənədi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Avropa Komissiyasının vitse-prezidenti, xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini paraflayıblar. Sənədin birinci bəndində qeyd edildiyi kimi, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Eyni zamanda, birinci bənddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur. Tərəfdaşlıq və qarşılıqlı hörmətə əsaslanan sənəd, həmçinin Azərbaycanın öz iqtisadiyyatının şaxələndirilməsinə yönəlmiş siyasətini, ölkəmizdə iqtisadi islahatlar gündəliyinin dəstəklənməsi istiqamətində görülən işlərə Avropa İttifaqının mümkün töhfəsini qeyd edir.

Sənəddə Azərbaycanın əlverişli geostrateji mövqeyə malik olması, ölkəmizin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji layihələrinin həyata keçirilməsinə verdiyi töhfə də Avropa İttifaqı tərəfindən vurğulanır. Eyni zamanda, «Cənub Qaz Dəhlizi» layihəsinin tezliklə tam yekunlaşmasının və bunun nəticəsində Avropa bazarlarına təbii qazın çatdırılmasının əsas prioritetlər sırasında olduğu bildirilir. Sənəddə Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfənin əhəmiyyəti vurğulanır və bu sahədə Avropa İttifaqının ölkəmizlə əməkdaşlığa xüsusi marağı olduğu bildirilir. Eyni zamanda, paraflanan sənəddə Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivləri də əksini tapıb.

## Rəsmi xronika

- Prezident İlham Əliyev «Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında» 2018-ci il martın 5-də Bakı şəhərində imzalanmış Konvensiyanın təsdiq edilməsi barədə Qanunu imzalayıb.

- Prezident İlham Əliyev Belçikaya səfəri çərçivəsində iyulun 12-də Brüsseldə Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb. Dövlətimizin başçısı Əfqanıstan Prezidentinin ölkəmizə səfərlərini və indiyədək keçirdiyi görüşləri məmnunluqla xatırladıb.
  Məhəmməd Əşrəf Qani Azərbaycanın Əfqanıstana müxtəlif sahələrdə göstərdiyi davamlı dəstəyə, həmçinin ölkəmizin Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısına ev sahibliyi etdiyinə görə bir daha minnətdarlığını bildirib.
  Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub, Azərbaycanın Əfqanıstana humanitar sahədə göstərdiyi dəstək xüsusi vurğulanıb.

- Prezident İlham Əliyev Brüsseldə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə də görüşüb. Söhbət zamanı Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi müzakirə edilib, ATƏT-in həmsədr ölkələrinin nazirlərinin iyulun 11-də keçirilən görüşü barədə məlumat verilib və ətraflı fikir mübadiləsi aparılıb.

- Azərbaycan Prezidenti İlham Əliyev iyulun 13-də Bakıda İran İslam Respublikasının səhiyyə, müalicə və tibbi təhsil naziri Həsən Qazizadə Haşiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Həsən Qazizadə Haşimi qeyd edib ki, hər iki ölkə rəhbərlərinin səyləri nəticəsində ikitərəfli münasibətlərimiz gündən-günə güclənir və möhkəmlənir.
  Azərbaycan ilə İran arasında qarşılıqlı əməkdaşlığın bütün sahələrdə, o cümlədən səhiyyə sahəsində uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Prezident Həsən Ruhani ilə görüşlərini məmnunluqla xatırlayaraq qeyd edib ki, bu görüşlər zamanı səhiyyə sahəsində əməkdaşlıq məsələləri də müzakirə edilib və bununla bağlı işlərin həyata keçirilməsi üçün müvafiq tapşırıqlar verilib.

Alman-Azərbaycan Xarici Ticarət Palatasının üzvləri ilə görüş — səh. 2

Şəffaflıq üçün transfer qiymətlərinə nəzarət edilməlidir — səh. 3

Hər bir sahibkar qanunlara riayət etməli, vergiləri tam ödəməlidir — səh. 4

Xidməti müqavilə kimə sərfəlidir: işəgötürənə, yoxsa işçiyə? — səh. 5

# Alman-Azərbaycan Xarici Ticarət Palatasının üzvləri ilə görüş

İyulun 12-də Vergilər Nazirliyi və Alman-Azərbaycan Xarici Ticarət Palatasının («AHK-Azərbaycan») birgə təşkilatçılığı ilə qurumun üzvləri və sahibkarlarla görüş keçirilib. Tədbirdə vergilər naziri Mikayıl Cabbarov, nazirliyin digər vəzifəli şəxsləri, «AHK-Azərbaycan»ın rəhbərliyi və təşkilata üzv şirkətlər iştirak ediblər.




Tədbirdə çıxış edən «AHK Azərbaycan»ın icraçı direktoru Tobias Bauman Azərbaycan və Almaniya arasında iqtisadi əməkdaşlığın genişləndiyini, indiyədək imzalanmış müxtəlif sənədlərin xarici investorların iqtisadiyyatın müxtəlif sahələrdə fəal iştirakına əlverişli şərait yaratdığını bildirib. Qeyd edilib ki, ticarət dövriyyəsinin həcminə görə hazırda Almaniya Azərbaycanın ticarət tərəfdaşları arasında 5-ci yerdədir və iqtisadi əlaqələrin möhkəmlənməsində «AHK Azərbaycan»ın fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. T.Bauman son dövrlərdə ölkəmizin vergi sistemində aparılan islahatlara diqqət çəkərək, bu islahatların biznes və investisiya mühitinin yaxşılaşdırılması, vergi yükünün azaldılması və vergilərin optimallaşdırılması, vergi orqanları ilə sahibkarlar arasında münasibətlərin yeni müstəvidə qurulması və vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı olduğunu bildirib.

Tədbirdə «Biznesə yeni yanaşma» mövzusunda çıxış edən vergilər naziri Mikayıl Cabbarov bildirib ki, Vergilər Nazirliyi biznes nümayəndələri, o cümlədən Alman-Azərbaycan Xarici Ticarət Palatası ilə açıq dialoqa və qarşılıqlı fikir mübadiləsinə böyük əhəmiyyət verir. Palata hər iki ölkə arasında münasibətlərin inkişafına töhfə verir, eyni zamanda Vergilər Nazirliyi təşkilatla əlaqələrin biznes mühitinin yaxşılaşdırılması sahəsində səmərəli nəticələr verəcəyini gözləyir: əlaqələrimiz artıq əlverişli platformaya çevrilib.

Vergilər naziri bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən rəhbərlik etdiyi qurumun qarşısına vergi mühitinin cəlbediciliyinin artırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi yükünün optimallaşdırılması, vergi orqanlarında şəffaflığın təmin olunması istiqamətlərində mühüm vəzifələr müəyyənləşdirilib. Vergilər Nazirliyinin başlıca strategiyası dövlətin həyata keçirdiyi fiskal siyasətə uyğun olaraq vergi ödəyiciləri tərəfindən büdcəyə ödənilən vergilərin tam və vaxtında ödənilməsini təmin etməkdir. Müasir iqtisadi şərait, biznes mühiti, iqtisadiyyatın strukturunda baş verən dəyişikliklər həm vergi ödənişlərinin təmin



edilməsi, həm də vergi inzibatçılığının həyata keçirilməsi baxımından qarşıya yeni tələblər qoyur. Hazırda vergi sistemində vergi inzibatçılığının təkmilləşdirilməsi və struktur islahatları həyata keçirilməkdədir, eyni zamanda qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində də işlər davam etdirilir.

> Yeni institusional struktur vergi siyasətinin dərin iqtisadi təhlillərlə və tədqiqatlarla əsaslandırılmış analitik potensial üzərindən qurulmasına yardım edəcək

Qeyd olunub ki, struktur islahatlarının ən vacib institusional yeniliklərindən biri yeni apelyasiya institutunun yaradılmasıdır. Bu struktur vergi orqanı ilə vergi ödəyiciləri arasında mübahisələrin ədalətli şəkildə həll olunmasına və şəffaflığın təmin edilməsinə, şikayətlərə obyektiv və vaxtında baxılmaqla vergi ödəyicilərinin etimadının artırılmasına xidmət edəcək. İslahatların digər mühüm istiqamətlərindən biri vergi auditinin təkmilləşdirilməsidir. Bu məqsədlə yaradılmış audit departamenti yoxlama və nəzarət tədbirlərinin vahid mərkəzdən idarə olunması, yoxlamaların koordinasiyası, rəqəmsal texnologiyalara əsaslanan təkmil risk qiymətləndirməsinin həyata keçirilməsi, yoxlamaların keyfiyyətinin artırılması, audit sisteminin şəffaf, effektiv və keyfiyyətli qurulmasına imkan yaradacaq. Risklərin qiymətləndirilməsi meyarı vergi orqanının əsas fəaliyyət istiqamətlərindən olacaq.

Nazir qeyd edib ki, islahatlar çərçivəsində vergi ödəyicilərinin fəaliyyətinin makro və mikroiqtisadi təhlillərinin aparılması məqsədilə ixtisaslaşmış strukturlar yaradılıb. Yeni institusional struktur vergi siyasətinin dərin iqtisadi təhlillərlə və tədqiqatlarla əsaslandı-



rılmış analitik potensial üzərindən qurulmasına yardım edəcək. Makro və mikro səviyyədə iqtisadi proqnozlar çərçivəsində vergitutma bazasının düzgün qiymətləndirilməsi əsasında vergi növlərinin optimal proqnozlaşdırılması mümkün olacaq. Bu siyasət kiçik və orta sahibkarlığın dəstəklənməsinə, vergitutma bazasının genişlənməsinə, vergi mədəniyyətinin gücləndirilməsinə öz töhfəsini verəcək.

Bildirilib ki, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, vergi ödəyiciləri ilə əlaqələrin yeni müstəvidə qurulması aparılan islahatların əsas prioritetlərindəndir. Vergi yükü ilə bağlı məsələyə diqqət çəkən nazir qeyd edib ki, fiskal dərəcələrin aşağı salınması, bəzi vergi dərəcələrinin optimallaşdırılması yolu ilə vergi yükünün azaldılması nəzərdən keçirilir. Bu islahatlar qeyri-rəsmi məşğulluğun qarşısının alınması, şəffaflığın təmin olunması, könüllü əməletmənin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edəcək. M.Cabbarov yeni vergi sisteminin sahibkarlar üçün əvvəlcədən proqnozlaşdırıla bilən və şəffaf vergi mühitinin yaranmasına xidmət edəcəyini xüsusilə vurğulayıb.

Sonra qarşılıqlı maraq doğuran və iş adamlarını maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, nazirliyin nümayəndələri tədbir iştirakçılarının suallarını cavablandırıblar.

## Vergilər naziri Qəbələdə vətəndaşları qəbul edib

İyulun 14-də vergilər naziri Mikayıl Cabbarov Qəbələ şəhərində 10 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında vətəndaşları qəbul edib. Qəbulda Qəbələ, İsmayıllı, Oğuz, Zaqatala, Balakən və Qax rayon sakinləri iştirak ediblər.

Qəbula gələn vətəndaşlar, əsasən, yaranmış vergi borcları, vergi orqanlarında işə bərpa, vergi inzibatçılığı sahəsində qarşılaşdıqları məsələlərlə əlaqədar müraciət ediblər.

Vətəndaşların müraciətləri dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı nazirliyin struktur bölmələrinə tapşırıqlar verilib.

## Yaponiyalı səfir Vergilər Nazirliyində olub

İyulun 12-də Vergilər Nazirliyində Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori ilə görüş keçirilib.

Qonağı salamlayaraq bu tanışlıqdan məmnun olduğunu bildirən vergilər naziri Mikayıl Cabbarov vergi sistemində aparılan son struktur islahatları barədə ətraflı məlumat verib. Görüşdə Azərbaycanda iqtisadi sahədə həyata keçirilən islahatlar, ölkələrarası ticarətin genişlənməsi, investisiyaların yatırılması və əməkdaşlıq məsələlərinə toxunulub.

Tərəflər Azərbaycan və Yaponiya arasında vergitutma sahəsində əməkdaşlığın perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirə aparıblar.

## Vətəndaşların müraciətinə fərdi yanaşılır

2018-ci ilin birinci yarısında vergi orqanlarına 47.299 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,4% azdır. Müraciətlərin 93,6%-i ərizə, 6,1%-i şikayət, 0,3%-i isə təklif xarakterli olub.

Vətəndaş müraciətləri müxtəlif arayışların alınması, kameral vergi yoxlamaları, vergi borcları, vergidən yayınma, qanunsuz sahibkarlıq fəaliyyəti, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, vergi qanunvericiliyinin tətbiqi, səyyar vergi yoxlamaları və digər məsələlərlə bağlı olub. İlin ilk yarısında vergi orqanlarına 2.893 şikayət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 22% azdır. Vergilər Nazirliyinin aparatına daxil olan müraciətlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,3% az olub.

2018-ci ilin birinci yarısında vergi orqanlarının aidiyyəti struktur bölmələrinin rəhbərləri və digər vəzifəli şəxsləri tərəfindən ümumilikdə 2.183 vətəndaş qəbul edilib. Hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılıb, onların qanuni tələblərinin müsbət həll olunması üçün tədbirlər görülüb və müvafiq izahatlar verilib.

## Biznes mühitində fəallıq müşahidə edilir

2018-ci ilin ötən 6 ayı ərzində vergi ödəyicilərinin qeydiyyatı və uçotu sahəsində müsbət dəyişikliklər müşahidə olunub: qeydiyyatdan keçmiş vergi ödəyicilərinin sayı 40.706 (6.033 hüquqi şəxs, 34.673 fiziki şəxs), fəaliyyətini bərpa etmiş vergi ödəyicilərinin sayı isə 47.477 təşkil edib.

Qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş vergi ödəyicilərinin ümumi sayı fəaliyyətini dayandırmış və vergi uçotu ləğv edilmiş vergi ödəyicilərinin sayından 6.681 vergi ödəyicisi qədər çox olub. Həmin dövrdə 8.501 NKA qeydiyyata alınıb, POS-terminalların sayı son bir ildə 36% çoxalıb.

2018-ci ilin yanvar-iyun ayları ərzində qeydiyyatdan keçmiş təsərrüfat subyektlərinin sayı 14.161 olub, 18.092 təsərrüfat subyekti isə fəaliyyətini bərpa edib. ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyicilərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 5,5 % artıb. İlk 6 ayda vergi ödəyicilərinin qeydiyyat prosedurlarının təkmilləşdirilməsi və vergi inzibatçılığı proseslərinin sadələşdirilməsi məqsədilə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron qeydiyyatında istifadə olunan proqram təminatında da bir sıra dəyişikliklər aparılıb. Bundan əlavə, istifadəçilərə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı proseduru çərçivəsində ƏDV məqsədləri üçün qeydiyyat və bank hesabı açmaq üçün şəhadətnamə-dublikat alınması barədə ərizələrin təqdim edilməsi və iş tipli sertifikatın əldə edilməsi imkanları yaradılıb. Yerli investisiyalı kommersiya hüquqi şəxslərin elektron qeydiyyatı ilə bağlı 3 dildə məlumat hazırlanaraq Vergilər Nazirliyinin internet səhifəsində (www.taxes.gov.az) yerləşdirilib.

Hesabat dövründə kommersiya hüquqi şəxslərin, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinin, publik hüquqi şəxslərin dövlət qeydiyyatına alınması, qeyri-kommersiya təşkilatlarının, hüquqi şəxslərin filialları, struktur bölmələri və ya digər ayrıca bölmələrinin uçota alınması ilə bağlı təqdim olunmuş sənədlərin qanunvericiliyin tələblərinə uyğunluğu real vaxt rejimində yoxlanılıb. Uçotsuz fəaliyyət göstərən vergi ödəyicilərinin və təsərrüfat subyektlərinin operativ qaydada vergi uçotuna alınması ilə bağlı Vergilər Nazirliyinin aidiyyəti strukturları tərəfindən lazımi tədbirlər həyata keçirilib.

## Strateji Yol Xəritəsinin icrası uğurla həyata keçirilir

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən «Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»nin icra vəziyyəti ictimaiyyətə açıqlanıb.**

Monitorinq və qiymətləndirmənin nəticələrinə əsasən, Strateji Yol Xəritəsi üzrə ümumi icra səviyyəsi 92 faizdir. Xəritənin 2017-ci il üzrə nəzərdə tutulan hissəsinin 86 faizinin icrası tamamlanıb, 12 faizi qismən icra edilib və 2 faizi isə icra edilməyib. 2017-ci il ərzində Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol xəritəsinin ilk hədəfi - Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi üzrə tam icra 67 faiz, qismən icra 25 faiz olunub, cəmi 8 faiz tədbir icra edilməyib. Bu istiqamətdə makroiqtisadi koordinasiyanın təmin edilməsi, «Qızıl qayda» prinsipi ilə uzlaşdırmanın həyata keçirilməsi, yeni alternativ lövbərin hədəflənməsi, tam üzən məzənnə rejiminə keçidin təmin edilməsi, banklararası bazarın fəaliyyətinin təkmilləşdirilməsi, ortamüddətli xərclər çərçivəsi, adekvat iqtisadi gözləntilərin formalaşdırılması və idarə edilməsi istiqamətində 2017-ci il üçün nəzərdə tutulan tədbirlər həyata keçirilib. Pul təklifi kanallarının nəzarətə götürülməsini təmin edən pul proqramı (2017-ci il üçün) qəbul edilib və ilin yekunu üzrə bu proqrama əməl olunub.

> Ölkədə innovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi istiqamətində beynəlxalq təcrübə öyrənilməklə, Azərbaycan Respublikasının milli innovasiya sisteminin formalaşması və inkişafına dair proqramın layihəsi hazırlanıb

Strateji Yol Xəritəsində ikinci hədəf - Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi üzrə icra səviyyəsi belədir: 71 faiz tam icra və 29 faiz qismən icra. Dövlət mülkiyyətçiliyinə əsaslanan tələbatı müəyyən edən meyarlar nəzərə alınmaqla «Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısı» yenilənib. Dövlət əmlakının özəlləşdirilməsi prosesi sürətləndirilərək 40-a yaxın müəssisə və obyektin özəlləşdirilməsi barədə qərar qəbul edilib və onlardan 13-ü özəlləşdirilib. Özəlləşdirilməyə açıq elan edilən müəssisə və obyektlərə dair vahid məlumat bazası, «Özəlləşdirmə Portalı» və 2018-ci il üzrə «Özəlləşdirmə Gündəliyi» hazırlanıb.

Xəritədə üçüncü hədəf - İnsan kapitalının inkişaf etdirilməsi üzrə icra səviyyəsi 100 faiz olub. Ölkədə innovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi istiqamətində beynəlxalq təcrübə öyrənilməklə, Azərbaycan Respublikasının milli innovasiya sisteminin formalaşması və inkişafına dair proqramın layihəsi hazırlanıb. Dördüncü - Əlverişli biznes mühitinin inkişaf etdirilməsi hədəfi üzrə 2017-ci ildə nəzərdə tutulan hissənin 94 faizinin icrası tamamlanıb, 6 faizi qismən icra edilib. Ölkədə biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı Komissiya çərçivəsində Rəqabət Məcəlləsinin yeni layihəsi hazırlanıb. «Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilib və bu çərçivədə beş mötəbər beynəlxalq hesabat üzrə 18 istiqamətdə biznes mühitinin əlverişliliyinin artırılması üçün fəaliyyətlər həyata keçirilir.

2017-ci ildə səmərəli vergi sisteminin təşviq edilməsi istiqamətində araşdırmalar aparılıb. Dövlət xidmətlərinin çevikliyi və səmərəliliyinin artırılması məqsədilə «Dövlət xidmətlərinin təşkilində DATA analizi», «Açıq hökumət məlumatlarından istifadə edilməsi» və «Elektron hökumət həlləri» kimi araşdırmalar aparılıb. Bu zaman bir sıra ölkənin təcrübəsi öyrənilib, eyni zamanda, «Dünya Bankı»nın «Dövlət orqanlarının fəaliyyətinin ölçülməsində «Yaxşı idarəçilik» prinsipləri: şəffaflıq, səmərəlilik, cavabdehlik və effektivlik» prinsipləri təhlil edilib. Dövlət xidmətlərinin təşkilində «Açıq hökumət məlumatları»ndan istifadə, qabaqcıl texnologiyaların və elektron həllərin tətbiqi ilə bağlı araşdırmalar aparılıb, səfərlər təşkil edilib. Azad ticarət sazişlərinin bağlanması məqsədilə bir sıra ölkələrinin təcrübəsi öyrənilib, həmin ölkələrin bağladığı analoji sazişlər və onların ticarətə qarşılıqlı təsiri ətraflı təhlil edilib.

Strateji yol xəritələrinin monitorinq və qiymətləndirmə nəticələrinin ictimaiyyətə təqdim edilməsi açıq hökumət, yaxşı idarəetmə, şəffaflıq və hesabatlılıq meyarlarına uyğundur. Beləliklə, iqtisadi islahatların nəticələrinin açıq ictimai müzakirəsi aparılır ki, bu da bütün maraqlı tərəflərin rəy və təkliflərinin qərarların qəbulu prosesində nəzərə alınmasına zəmin yaradır.

# Şəffaflıq üçün transfer qiymətlərinə nəzarət edilməlidir



2018-ci ilin əvvəlindən Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən «Transfer qiymətlərinin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə Dəstək» Tvinninq layihəsinin icrasına başlanmasından 6 aydan artıq müddət ötüb. İndiyədək layihənin icrasında Azərbaycanın tərəfdaşları Yunanıstan vergi administrasiyası və Beynəlxalq və Avropa İqtisadi Hüquq Mərkəzi bu sahədə bir sıra işlər görüb. Layihənin rəhbəri, Yunanıstan Milli Gəlirlər Departamentinin beynəlxalq layihələr üzrə əlaqələndirmə qrupunun rəhbəri Katerina Perrounun «Vergilər» qəzetinə müsahibəsi bu mövzudadır.

**- Transfer qiymətləri sahəsində indiyədək görülən işlərin qısa xülasəsi nədən ibarətdir?**

- İlk öncə qeyd etmək istərdim ki, Azərbaycan hökumətinin Avropa İttifaqı ilə birgə həyata keçirdiyi yeni tvinninq layihəsi vergi ödəyiciləri ilə səmərəli əməkdaşlığın qurulmasında və çevik vergi inzibatçılığının həyata keçirilməsində irəliyə doğru növbəti mühüm addımdır. Layihə transfer qiymətləndirməyə dair qanunvericiliyin və praktiki məsələlərin inzibatçılığı, habelə transfer qiymətləndirmə üzrə auditin tətbiqi və icra edilməsi sahələrində Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsini öyrənməyə və gələcəkdə mövcud qaydaların daha da təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Layihənin icra olunduğu müddətdə Yunanıstanın transfer qiymətlərinə nəzarət sahəsi üzrə ixtisaslaşmış 10-dan artıq peşəkar vergi mütəxəssisi Azərbaycanda olub, layihə üzrə seçilmiş hədəf qrupunun üzvləri üçün seminarlar keçiblər. Bizim təşkil etdiyimiz missiya layihənin nəzərdə tutulmuş planına əsasən azərbaycanlı vergi mütəxəssislərinə bilik və bacarıqların mənimsənilməsinə yardımçı olmaqla bərabər, həm də transfer qiymətlərinə nəzarətlə bağlı müasir meyillər haqqında məlumat verib. Kifayət qədər işgüzar abhavada keçən seminarlarda layihənin prinsiplərinin aşılanmasında irəliləyişlərə nail olmuşuq.

İyun ayının sonunda təlimlərdə iştirak edən 10 vergi əməkdaşının Yunanıstana səfəri təşkil edilib, onlara müasir təlim-tədris modulları barədə geniş məlumat verilib. Azərbaycanlı vergi mütəxəssisləri həm Yunanıstanın vergi administrasiyasının fəaliyyəti ilə yaxından tanış olublar, həm də transfer qiymətləri sahəsində bizim auditorların gördüyü işləri, ölkəmizdə tətbiq edilən yenilikləri izləyiblər. Bunlarla yanaşı, onlar bir neçə gün bu prosesin iştirakçısı kimi həmin sahədəki innovasiyalar, texnologiyalar və vergidən yayınma hallarına qarşı tətbiq edilən müasir metodlarla tanış olublar.

Hazırkı müddət ərzində vergi orqanı əməkdaşları arasında beynəlxalq vergitutma, o cümlədən transfer qiymətləri sahəsində ilkin biliklərin formalaşdırılması əsas hədəf kimi götürülüb. Növbəti aylarda transfer qiymətləri üzrə risk-təhlil və audit prosesinin təşkili ilə bağlı məsələlər öz həllini tapacaqdır. İnzibatçılıq sahəsində isə transfer qiymətləri üzrə riskin idarə edilməsi və təhlil prosesinin sistemləşdirilməsi, institusional bacarıqların inkişafı, beynəlxalq vergidən yayınma sxemləri ilə mübarizə və audit sahəsində vergi orqanı əməkdaşlarının təcrübəsinin artırılması, daxili məlumat bazasının təkmilləşdirilməsi, müvafiq hesabatı təqdim etməyən vergi ödəyicilərinin aşkarlanması mexanizmlərinin, eləcə də elektron ticarət və rəqəmsal iqtisadiyyata nəzarət mexanizmlərinin yaradılması nəzərdə tutulur.

**- Transfer qiymətləri sahəsində beynəlxalq təcrübədə nə kimi yeniliklər tətbiq edilir?**

- Son illər dünya iqtisadiyyatının qloballaşması və transmilli korporasiyaların beynəlxalq ticarətdə rolunun artması fonunda dünya vergi administrasiyalarının qarşısında transfer qiymətlərinə nəzarət kimi mühüm bir problem meydana çıxıb. Bu gün beynəlxalq vergitutmada və vergi hüquqpozmalarına qarşı mübarizədə transfer qiymətləndirmə ən mühüm və böyük əhəmiyyət kəsb edən vacib məsələyə çevrilib. Bu sahədə yaranan vergi riskləri ən çox rast gəlinən və miqyasına görə ən geniş yayılan vergidən yayınma formalarından biridir. Qlobal şirkətlərin vergilərin minimallaşdırılması məqsədilə müxtəlif sxemlərdən istifadə etməsi, yekun mənfəəti əldə etmək üçün qarşılıqlı asılı şəxslər arasında əməliyyatların və qiymətlərin planlaşdırılması vergi administrasiyaları üçün bir çox çətinliklər yaradır. Transfer qiymətləri ilə bağlı məsələyə olduqca böyük diqqət ayıran inkişaf etmiş dövlətlər müxtəlif mexanizmlər işləyərək yaxşı təcrübə əldə edib. Onlar bu sahədə həm potensialını, həm də mütəxəssislərin həmin istiqamətdə hazırlığını artırmaqdadır, xüsusilə də OECD ölkələri bu sahəyə davamlı olaraq sərmayə qoyur, infrastrukturu və innovasiyaları gücləndirir. Həmin ölkələrin müxtəlif prinsipləri olsa da, ümumi yanaşdıqda, çevik və dinamik texnologiyalara malik olduğunu demək mümkündür.

Transfer qiymətləri elə bir sahədir ki, daim dünyada iqtisadi situasiyaya və qlobal iqtisadiyyatın strukturunda baş verən dəyişikliklərə, biznesin inkişaf templərinə uyğun yeni yanaşmalar, qiymətləndirmələr tələb edir. Qloballaşma həmişə bu mövzunun aktual məsələ kimi diqqətdə saxlanmasını tələb edir. Ona görə də hər bir ölkə bu sahənin xüsusiyyətlərinə, yeni trendlərə uyğunlaşmalı və ayaqlaşmalı, yenilikləri izləməlidir.

> Transfer qiymətləri ilə bağlı nəzərdə tutulan tədbirlərin icrası iqtisadi, fiskal, vergi sahəsində inzibatçılığın təkmilləşdirilməsinə və ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılmasına, vergi nəzarətinin yeni mexanizmlərinin tətbiqinə səbəb olacaq

**- Transfer qiymətlərinə nəzarət sahəsində yeniliklərin tətbiqi vergidən yayınmanın qarşısının alınmasına konkret olaraq hansı təsirləri göstərə bilir?**

- Transfer qiymətinin tətbiqinin məqsədi bir-biri ilə qarşılıqlı əlaqəli şəxslər tərəfindən həyata keçirilən əməliyyatların bazar qiymətləri prinsipinə uyğun aparılmasına nəzarət etmək və vergitutma bazasının azaldılmasının qarşısını almaqdır. Transfer qiymətlərinə güclü nəzarət mexanizmlərinin olması vergi hüquqpozmalarının və vergidən yayınma hallarının qarşısının alınmasında, vergi inzibatçılığının və vergi uçotunun təkmilləşdirilməsində, şəffaflığın təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Əsas məqsəd odur ki, transfer qiymətlərinə nəzarətdə düzgün tətbiqetmə metodları müəyyənləşdirə biləsən, ədalət prinsiplərinə əməl edəsən. Burada investorların, transmilli şirkətlərin özünün də məsuliyyət və ədalətliliyi mühüm əhəmiyyət kəsb edir.

**- Azərbaycanın vergi administrasiyasının transfer qiymətlərinə nəzarət sahəsində gördüyü işləri necə qiymətləndirərdiniz?**

- Azərbaycanın transfer qiymətlərinə böyük diqqət ayırması, layihələr hazırlaması və vergi sistemində tətbiq etmək üçün davamlı işlər görməsi təqdirəlayiqdir. Əldə etdiyim məlumata görə, vergi administrasiyası transfer qiymətlərinə nəzarət mexanizmlərinin yaradılmasını milli vergi qanunvericiliyinə və strateji inkişaf planlarına daxil edib. Bu, həmin sahəyə nəzarət üçün keyfiyyətli mexanizmlərin və prosedurların hazırlanaraq tətbiqi baxımından faydalı olacaq. Transfer qiymətləri ilə bağlı nəzərdə tutulan tədbirlərin icrası iqtisadi, fiskal, vergi sahəsində inzibatçılığın təkmilləşdirilməsinə və ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılmasına, vergi nəzarətinin yeni mexanizmlərinin tətbiqinə səbəb olacaq. Layihənin icrası sayəsində həm də Vergilər Nazirliyinin insan resurslarının inkişaf etdirilməsi sahəsində uğurlu nəticələrə nail olunacaqdır.

Hazırda aparılan işlər, xarici tərəfdaşlarla birgə mübadilə imkanlarının genişləndirilməsi, qabaqcıl texnologiyalara açıqlıq öz müsbət nəticələrini göstərəcəkdir. Bununla yanaşı, qlobal iqtisadiyyata inteqrasiyanı genişləndirən Azərbaycanın vergi administrasiyasının transfer qiymətləri sahəsində müəyyən çağırışları nəzərə alması tələb olunur. Transfer qiymətlərinə nəzarət sahəsində böyük təcrübəyə malik Avropa ölkələrinin təcrübəsindən yararlanmaq olduqca vacibdir.

**- Transfer qiymətləri sahəsində beynəlxalq əməkdaşlığın gələcəkdə də davam etdirilməsi və ölkəmizdə digər layihələrin həyata keçirilməsi nəzərdə tutulurmu?**

- Transfer qiymətlərinə nəzarət elə bir sahədir ki, bu istiqamətdə Avropa İttifaqı və OECD ölkələri ilə, digər dövlətlərlə davamlı olaraq birgə əməkdaşlıq vacibdir. Bu istiqamətdə bir layihə ilə kifayətlənmək düzgün deyil. Hazırda bizim icra etdiyimiz layihənin müddəti iki ildir, layihə çərçivəsində plana uyğun olaraq bir çox işlər görəcəyik. Avropa İttifaqı ölkələrinin transfer qiymətlərinə nəzarət üzrə istifadə etdiyi ən yaxşı nümunələrin Azərbaycanın vergi administrasiyasında tətbiqinə, vergi işçilərinin bilik və bacarıqlarının artırılmasına çalışacağıq.

Hesab edirəm ki, sonrakı dövrlərdə transfer qiymətlərinə nəzarət sahəsində ölkələrarası və beynəlxalq əməkdaşlıq davamlı olmalıdır. Qarşıdakı müddətdə ölkənizin digər alətlər çərçivəsində transfer qiymətləndirməyə böyük önəm verəcəyini düşünürəm. Çünki Azərbaycanın vergi administrasiyası həmin sahədə çox iradəli və qətiyyətlidir.

*Hazırladı:*
**Elbrus CƏFƏRLİ**

# Güzəştlər ünvanlı olmalıdır

Vergi güzəştlərinin başlıca məqsədi ölkənin iqtisadi mənafeyinin nəzərə alınması ilə ayrı-ayrı sahələr üzrə stimullaşdırıcı vəzifələri yerinə yetirmək, müəyyən sektorların, fəaliyyət növlərinin inkişafına şərait yaratmaqdır. Bu cür güzəştlər kiçik və orta sahibkarlığın inkişafına, innovativ texnologiyaların tətbiqinin genişləndirilməsinə, rəqabətqabiliyyətli ixrac sahələrinin stimullaşdırılmasına xidmət edir. Ancaq bu da bir həqiqətdir ki, güzəştlər heç də həmişə iqtisadi inkişafı, ictimai və dövlət maraqlarını gözlənilən səviyyədə təmin etmir. Bəzən verilən güzəştlərdən sui-istifadə hallarına rast gəlinir. Belə hallarda güzəştlər itirilmiş vəsaitlərə çevrilir. Rəsmi statistik göstəricilər əsasında aparılan təhlillər isə vergi güzəştləri və azadolmaları ilə bağlı siyasətə yenidən baxılması zərurətini aktuallaşdırır.

2017-ci ildə Azərbaycanda vergi güzəştləri tətbiq olunan vəsaitlərin ümumi məbləği 1 milyard 263,2 milyon manat təşkil edib. Vergi güzəşti və azadolmalarının strukturunda birinci yeri gəlir vergisi tutub: ötən il 437,5 milyon manat məbləğində gəlir vergisinə güzəşt tətbiq olunub ki, bu da ümumi azadolmaların 35 faizini təşkil edib. Sonrakı yerləri 26 faizlə mənfəət vergisi (324,3 milyon manat), 21 faizlə ƏDV (265 milyon manat), 10 faizlə əmlak vergisi (134,4 milyon manat) və 8 faizlə sadələşdirilmiş vergi (102 milyon manat) tutur.

2017-ci ildə vergi güzəşti və azadolmalarından istifadə edən şəxslərin statistikası da maraqlıdır. Güzəştlərdən istifadə edənlərin 92,2 faizi fiziki şəxslərdir. Sadələşdirilmiş vergidən azad olunanların sayı 29 min 582, əmlak vergisindən azad edilənlər 2656, ƏDV-dən azad edilənlər 650, mənfəət vergisindən azad edilənlərin sayı isə 213 olub. Nəzərə alsaq ki, kənd təsərrüfatı sektoru və əmanət faizləri üzrə gəlirlərdən azadolmalar bu statistikaya aid edilməyib, onda ötən il vergi güzəşti və azadolmalarından istifadə edən şəxslərin sayının daha çox olduğunu deyə bilərik.

Statistik təhlillər daha bir maraqlı məqamı üzə çıxarır. 2017-ci ilin vergi güzəşti və azadolmalarının bəyannamələrdə əks olunması vəziyyəti üzrə rəqəmlər göstərir ki, dövlətin verdiyi bu imtiyazlardan istifadə edənlərin təxminən yarıya qədəri aldığı güzəşti bəyannamələrdə düzgün göstərməyib. Məsələn, gəlir vergisi üzrə bəyannamədə əks edilməli güzəşt və azadolmaların sayı 45 olsa da, bəyannamədə onlardan yalnız biri haqqında məlumat verilir. Mənfəət vergisində bu göstərici, müvafiq olaraq, 18-ə qarşı 17, əmlak vergisində 11-ə qarşı 10, torpaq vergisində 7-yə qarşı 3, sadələşdirilmiş vergidə 4-ə qarşı 2 olub. Bu sırada yalnız ƏDV üzrə ödəyicilər bəyannamə tələblərinə əməl ediblər: bu vergi növü üzrə güzəşt və azadolmalardan istifadə edənlər bəyannamədə əks olunmalı güzəşt və azadolmaların sayını tam şəkildə göstərib. Ümumilikdə isə vergi bəyannamələrində məlumat verilməli 108 güzəşt və azadolma növü olmasına baxmayaraq, onlardan yalnız 56-sı, yəni cəmi 51,9 faizi vergi bəyannamələrində əksini tapıb. Azadolmaların 42,4 faizi, güzəştlərin isə 69,6 faizi bəyannamələrdə əks olunmayıb.

Son 5 ildə vergi güzəştləri və azadolmaların dinamikasına nəzər saldıqda məlum olur ki, həmin vəsaitlərin ümumi məbləği ildən-ilə artır.

Beləliklə, son 5 ildə dövlət büdcəsi vergi güzəştləri və azadolmalardan 5 milyard 239 milyon 300 min manat itirib. Ən aşağı göstərici 2013-cü ildə (859,5 milyon manat), ən yüksək göstərici isə 2017-ci ildə (1 milyard 263,2 milyon manat) qeydə alınıb.

**Elxan SALAHOV**

# Vergi qanunvericiliyi yeni müstəvidə

2018-ci ilin dəqiqləşdirilmiş büdcə layihəsinə əsasən, vergi qanunvericiliyi və inzibatçılığında həyata keçirilməsi nəzərdə tutulan islahatların vergi ödəyicilərinə ehtimal edilən mənfi təsirini azaltmaq və əlavə dəyər vergisinin inzibatçılığı çərçivəsində gömrük və vergi orqanları arasında əlavə dəyər vergisinin ödənişlərində yaranmış disproporsiyanın mərhələlərlə aradan qaldırılması zərurəti nəzərə alınaraq, qeyri-neft gəlirləri üzrə təsdiq olunmuş proqnozun 1 milyard 27 milyon manat azaldılması, neftin satış qiymətinin artımı hesabına neft gəlirləri üzrə daxilolmaların 500 milyon manat artırılması, yekunda Vergilər Nazirliyinin xətti ilə təsdiq edilmiş proqnozun 527 milyon manat azaldılması nəzərdə tutulur.

Qeyd olunan artım və azalmalar nəzərə alınmaqla, 2018-ci ilin dəqiqləşdirilmiş dövlət büdcəsinin gəlirlərinin tərkibində Vergilər Nazirliyinin xətti ilə daxilolmalar 7 milyard 380 milyon manat təşkil edəcək ki, bu da 2017-ci ilin faktiki icra göstəricisi ilə müqayisədə 406,5 milyon manat və yaxud 5,8% çoxdur. Vergilər Nazirliyinin xətti ilə qeyri-neft sektoru üzrə dövlət büdcəsinə daxilolmalar 5 milyard manat nəzərdə tutulur ki, bu da 2017-ci ilin faktiki icra göstəricisi ilə müqayisədə 189,5 milyon manat və yaxud 3,7%, 2018-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 1 milyard 27 milyon manat və yaxud 17,0% azdır. Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə təmin edilən daxilolmaların dəqiqləşdirilmiş proqnozu 3 milyard 155 milyon manat təşkil edəcək ki, bu da təsdiq edilmiş proqnozla müqayisədə 725 milyon manat və ya 29,8%, 2017-ci ilin faktiki icra göstəricisi ilə müqayisədə 546,2 milyon manat və ya 20,9% çoxdur.

İqtisadçı alim Pərviz Heydərovun sözlərinə görə, cari ilin dövlət büdcəsinə yenidən baxılması nəticəsində gəlirlərin təmini məsələsində əsas strukturlar arasında pay bölgüsünün dəyişdirilməsi mədaxil üzrə proqnoz göstəricilərin yerinə yetirilməsi işində keyfiyyəti yaxşılaşdırmaq məqsədi daşıyır. Buna şərait yaradan amil neftin dünya bazar qiyməti ilə bağlıdır: «2018-ci ilin dövlət büdcəsinin gəlirləri 20.127 milyon manat, xərcləri isə 20.905,7 milyon manat nəzərdə tutulmuşdu. Neftin hər barelinin qiyməti 45 ABŞ dolları səviyyəsində götürülməsi imkan verdi ki, dünya bazarlarında qiymətlərin yüksək olması üzündən 2 dəfə artıq gəlir əldə etmək mümkün olsun və bu da gəlirlərin mövcud strukturuna yenidən baxmağa imkan verir». Bunun çox əlverişli vəziyyət olduğunu qeyd edən mütəxəssisin sözlərinə görə, 2018-ci ildə Vergilər Nazirliyi üzrə proqnoz göstəricisi məbləği ÜDM-in 11,4 %-i həcmində olmaqla 7 milyard 907 milyon manat nəzərdə tutmuşdu ki, bu da ötən ilin proqnozundan 3,4%, 2016-cı ilin faktı ilə müqayisədə isə 12,7% çox demək idi. Gömrük Komitəsi xətti üzrə büdcəyə daxilolmaların həcm proqnozu ÜDM-in 3,5%-i həddində olmaqla 2,4 milyard manat nəzərdə tutulurdu: «Büdcəyə dəyişiklikdən sonra bu rəqəmlər birincinin payının azalması, ikincinin isə artması ilə müşahidə ediləcək. Səbəb isə, qeyd olunduğu kimi, mövcud vergi qanunvericiliyi və inzibatçılığında həyata keçirilməsi nəzərdə tutulan islahatların vergi ödəyicilərinə ehtimal olunan mənfi təsirini azaltmaq və əlavə dəyər vergisinin inzibatçılığı çərçivəsində gömrük orqanları ilə vergi orqanları arasında əlavə dəyər vergisinin ödənişlərində yaranmış disproporsiyanın mərhələlərlə aradan qaldırılması zərurətinin yaranmasıdır. Nəticədə qeyri-neft gəlirləri üzrə təsdiq olunmuş proqnoz göstərici 1 milyard 27 milyon manat məbləğində azalacaqdır».

İqtisadçı ekspert Vüqar Bayramov son dövrlər vergi siyasətində həyata keçirilən islahat və dəyişikliklərin inzibati yolla vergi daxilolmalarının artırılmasını deyil, mövcud vergi bazasına uyğun olaraq yığımların optimallaşdırılmasını nəzərdə tutduğunu bildirib: «Prioritet yığımların vergi bazasına, eləcə də vergi ödəyicilərinin ödəniş imkanına uyğun olaraq optimallaşdırılmasından ibarətdir. Bu, bir tərəfdən, dövlət büdcəsinə daxilolmalara müsbət təsir göstərməli, digər tərəfdən isə vergi ödəyicilərinin biznesinin inkişafına stimul yaratmalıdır. Son dəyişikliklərdən sonra Vergilər Nazirliyinin büdcəyə daxilolmaları əvvəlki illə müqayisədə 5,8% artacaq. Eyni zamanda, qeyri-neft sektorundan nəzərdə tutulan büdcəyə daxilolmalar da 2017-ci ilin faktiki göstəriciləri ilə müqayisədə 3,7% çox nəzərdə tutulur. Bu isə ondan xəbər verir ki, mövcud stimullaşdırıcı mexanizmlərdən istifadə etməklə büdcə daxilolmalarının formalaşması 2018-ci ildə əvvəlki illə müqayisədə daha çox vergi yığılacağına imkan yaradacaq. Ona görə də düşünürəm ki, vergi yığımlarına bu yanaşma daha çox strateji əhəmiyyət daşıyır. Məqsəd sadəcə qısamüddətli, hansısa maliyyə ilində büdcəyə vəsaitin daxilolmasını təmin etmək deyil, uzunmüddətli, strateji olaraq büdcə daxilolmalarının optimallaşdırılması və dayanıqlığının təmin edilməsi, eyni zamanda biznesin inkişafı üçün real imkanların formalaşdırılması, xüsusən də biznesin maliyyə imkanlarını genişləndirilməsi üçün onların sərəncamında qalan vəsaitin həcminin artırılmasına nail olmaqdan ibarətdir».

V.Bayramovun sözlərinə görə, növbəti illərdə də vergi daxilolmalarının, xüsusən də vergi dərəcələrinin optimallaşdırılması biznesin sərəncamında qalan vəsaitin artırılması ilə yanaşı, büdcə daxilolmalarında sabit artıma gətirib çıxaracaqdır. Bütün bunlar daxilolmalarda qeyri-neft sektorunun payının mərhələli şəkildə inzibati yolla deyil, daha çox təşviqi metodlarla artmasına imkan verəcək ki, bu da iqtisadi və maliyyə baxımından strateji dövrdə ölkə üçün mühüm əhəmiyyət kəsb edir.

> Son dövrlər vergi siyasətində həyata keçirilən islahat və dəyişikliklər inzibati yolla vergi daxilolmalarının artırılmasını deyil, mövcud vergi bazasına uyğun olaraq yığımların optimallaşdırılmasını nəzərdə tutur

İqtisadçı alim Fikrət Yusifov qeyd edib ki, cari ilin ötən beş ayı ərzində qeyri-neft sektorundan və bütövlükdə əlavə dəyər vergisindən daxilolmalar sahəsində heç bir problem yaşanmayıb və hər iki istiqamət üzrə proqnozlara artıqlaması ilə əməl olunub. Bu iki istiqamət üzrə vergi proqnozlarının dürüstləşdirilmiş büdcədə azaldılmasının real səbəbləri isə tamamilə başqadır: «Burada söhbət Vergilər Nazirliyinin vergi ödəyiciləri ilə münasibətləri yeni müstəviyə çıxarmasından gedir. Dəyişikliyin mahiyyəti vergilərin yığılmasındakı inzibati metodlardan imtina edilməsi və bunun əvəzində vergi ödəyiciləri ilə vergi yığanlar arasında sağlam bir mühitin formalaşmasıdır».

**Fəxriyyə İKRAMQIZI**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Fiziki şəxsin vergi öhdəliyi

***Fiziki şəxs 2 (iki) il ərzində qeydiyyatda olduğu yaşayış sahəsini təqdim edən zaman hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin 150.1.9-cu maddəsinə əsasən torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, bu Məcəllənin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda təqdim edilmə, həmçinin həmin Məcəllənin 221.5-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergi hesablanmış tikinti sahələrinin həmin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən təqdim edilməsi halları istisna olmaqla) üzrə müqavilələri təsdiq edən notarius ödəmə mənbəyində vergini tutmağa borcludur.

Vergi Məcəlləsinin 218.4.3-cü maddəsinə əsasən, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, həmçinin həmin Məcəllənin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş təqdim edilmə halları istisna olmaqla) həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir.

**Qeyd olunanlara əsasən:** Fiziki şəxsin yaşayış yeri üzrə 5 (beş) ildən az müddətdə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsindən notarius tərəfindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada ödəmə mənbəyində sadələşdirilmiş vergi hesablanır və hesablanmış vergi məbləği yaşayış sahəsini təqdim edən şəxsdən tutularaq dövlət büdcəsinə ödənilir.

Bununla yanaşı, yaşayış sahəsini satan şəxs 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu halda, həmin yaşayış sahəsinin satışı sadələşdirilmiş vergidən azaddır.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**2018-ci ilin birinci yarısında:**

- Azərbaycanda hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı **815 minə** yaxınlaşıb.
- Dünyanın 189 ölkəsindən respublikamıza **1 milyon 325 min** və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.
- Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkənin ümumi daxili məhsulu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz artaraq **37009,1 milyon** manata çatıb.

# Hər bir sahibkar qanunlara riayət etməli, vergiləri tam ödəməlidir

## Prezident İlham Əliyev: «Vergi və gömrük sistemlərində aparılan islahatlar öz bəhrəsini verir»

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısı bildirib ki, Azərbaycanda həyata keçirilən yeni islahatların başlıca hədəflərindən biri iqtisadi və maliyyə sektorlarında şəffaflığın maksimum səviyyədə təmin edilməsidir: «Şəffaflıq imkan verəcək ki, Azərbaycan iqtisadiyyatı daha inamla inkişaf etsin, qeyri-neft sektorumuza xarici sərmayə daha böyük həcmdə qoyulsun. Çünki bu sektora xarici sərmayənin lazımi səviyyədə olmamasının əsas səbəbi qeyri-şəffaf vəziyyətdir. Eyni zamanda, qanunvericilikdə də əlavə tədbirlər görülməlidir, baxmayaraq ki, bizim qanunvericiliyimiz xarici sərmayənin cəlb edilməsi üçün çox əlverişlidir. Əgər belə olmasaydı, ölkə iqtisadiyyatına 230 milyard dollardan çox sərmayə qoyulmazdı. Ancaq müasir dövrün tələbləri diktə edir ki, islahatlar daha da dərinləşsin və şəffaflıq tam təmin edilsin».

Ölkə Prezidenti bildirib ki, son vaxtlar vergi və gömrük sistemlərində aparılan islahatlar öz bəhrəsini verir: «Bu sahələr bir-birinə bağlı olan sahələrdir və əlbəttə ki, islahatlar hər iki sahədə paralel olaraq aparılmalıdır və aparılır. Əminəm ki, görülmüş işlər nəticəsində yaxın gələcəkdə biz daha da böyük nəticələr görəcəyik. Vergi və gömrük orqanları dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsinə qalxmalıdır. Yəni, sadə dillə desək, vəzifə bundan ibarətdir».

Maliyyə, vergi məsələləri üzrə mütəxəssis Radil Fətullayevin sözlərinə görə, hazırda vergi sistemində tətbiq olunan yeni yanaşmalar, xüsusilə də yoxlamaların optimallaşdırılması və vergi risklərinin məsafədən idarə edilməsi sistemi kimi innovativ alətlərin tətbiqi vergi orqanının şəffaf fəaliyyətinin göstəricisi hesab oluna bilər. Vergi sistemində geniş tətbiq edilən elektron qaimə-faktura (e-qaimə) vergidən yayınma hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsi baxımından ən yaxşı vasitələrdəndir. Şəffaflığı təmin edən müasir innovativ metodlardan biri elektron auditdir. Vergi yoxlamalarının aparılmasında ən səmərəli vasitə hesab edilən e-audit vergi ödəyicisinə elektron formatda saxlanılan maliyyə məlumatlarını xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən əldə etmək imkanı yaradır. Elektron audit vergi orqanı əməkdaşının vergi ödəyicisinin işinə müdaxiləsini aradan qaldırır, həm vergi orqanları, həm də vergi ödəyiciləri üçün vergi yoxlamaları ilə bağlı vaxt sərfiyyatını dəfələrlə azaldır. E-audit sayəsində vergi orqanları vergidən yayınan vergi ödəyicilərini vaxtında aşkarlaya və müvafiq tədbirlər görə bilir, nəticədə vergi intizamı artır, könüllü əməletmə dərəcəsinin yüksəlməsi və vergi inzibatçılığının cari xərclərinin azalması hesabına büdcə daxilolmalarında artım baş verir. Vergi orqanlarının apardığı təhlillərin nəticələrinə görə, e-auditin tətbiq edildiyi təsərrüfat subyektlərində könüllü əməletmə səviyyəsi 90%-dən yüksəkdir: «Şəffaflıq həm dövlət qurumları, həm də biznes üçün vacib məsələdir. Bir tərəfin qeyri-şəffaf olması sağlam münasibətləri, qarşılıqlı etimadı möhkəmləndirə, iqtisadi inkişafa töhfə verə bilməz. Buna görə də hökumət orqanları islahatlar yolu ilə şəffaf fəaliyyətə keçid üçün iradə nümayiş etdirirsə, biznes sektoru da hesabatlılıq, düzgün mühasibatlıq, ədalətlilik üçün açıq olmalıdır. Əks halda, irəliyə doğru getmək mümkün olmayacaq». Dövlət başçısı da məhz bu amilə diqqət çəkərək iqtisadi fəaliyyət sahələrində, o cümlədən vergi sektorunda təmin edilən əlverişli biznes mühitinin sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar yaratdığını və sağlam rəqabətə imkan verdiyini, bununla yanaşı, biznesin bu əlverişli şəraiti qiymətləndirməyi tövsiyə edib. Sahibkarları məsuliyyətli və şəffaf olmağa, qanunun tələblərinə əməl etməyə çağırıb: «Sahibkarlar tam aydın bilməlidirlər ki, işləmə qaydaları nədən ibarətdir. O da çox sadədir: qanunlara riayət etmək, vergiləri tam ödəmək, qaçaqmalçılıqla məşğul olmamaq və ölkə iqtisadiyyatına ziyan vurmamaq. Əsas şərtlər bundan ibarətdir».

> “Sahibkarlar tam aydın bilməlidirlər ki, işləmə qaydaları nədən ibarətdir. O da çox sadədir: qanunlara riayət etmək, vergiləri tam ödəmək, qaçaqmalçılıqla məşğul olmamaq və ölkə iqtisadiyyatına ziyan vurmamaq

Vergilər Nazirliyinin 2018-ci ildən başladığı yeni islahatlar kursu vergi sistemində şəffaflığın təmin edilməsinə, idarəetmə prinsiplərinin yenidən təşkili və müasir vergi inzibatçılığının formalaşdırılmasına, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsinə xidmət edir. Hazırda vergi qanunvericiliyində mövcud olan bəzi boşluqların aradan qaldırılması, Vergi Məcəlləsinin yeni redaksiyasının hazırlanması ilə bağlı sahibkarlardan daxil olmuş rəy və təkliflər nəzərdən keçirilir. Vergilər Nazirliyində aparılan struktur islahatları və funksional idarətmənin təkmilləşdirilməsi şəffaflığa və sahibkarlara ən müasir yanaşmanın tətbiqinə xidmət edir.

İslahatlar çərçivəsində keyfiyyətli və geniş spektrli elektron xidmətlər sisteminin tətbiqi sahibkarla vergi orqanları arasında canlı təmasın minimuma endirilməsinə hədəflənib. Yeni rəqəmsal texnologiyaların tətbiqi, inzibatçılığın rəqəmsallaşdırılması könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə xidmət edən əsas faktorlardan biri olacaq. Bu cür xidmət alətləri tərəflər arasında münasibətlərin tam şəffaf və aydın olmasına imkan verəcək.

Vergilər Nazirliyinin əsas məqsədi könüllü ödəmə sisteminə keçidin təmin edilməsi, vergi mədəniyyətinin daha da yüksəldilməsidir. Nazirlik hər bir sahibkarı dürüst, vicdanlı, şəffaf olmağa dəvət edir. Amma bu dəstəyə, əsassız yoxlamaların dayandırılmasına, biznesin qeydiyyatının sadələşdirilməsinə və sahibkarların hüquq və mənafelərinin qorunmasına xidmət edən təsirli addımların atılmasına baxmayaraq, təəssüf ki, bəzi iş adamları onlara verilmiş bu fürsətdən, yoxlamaların dayandırılmasından sui-istifadə edərək müxtəlif yollarla vergidən yayınmağa, bazara keyfiyyətsiz məhsul çıxarmağa çalışırlar. Sahibkarların əsas vəzifəsi uçot və hesabatlılığın qaydaya salınmasıdır, buna görə də onlar öz vəzifələrini və məsuliyyətini başa düşməli, vergiləri vaxtında ödəməlidirlər.

**ELBRUS**

# Azərbaycan yüksək mövqeyə malikdir

126 ölkəni əhatə edən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının «Qlobal innovasiyalar indeksi - 2018» hesabatında Azərbaycan bir sıra göstəricilər üzrə yüksək mövqeyini qoruyub.

Azərbaycanda son 15 ildə 33 qlobal islahat həyata keçirilib: bunlardan 7-si biznesə başlama, 6-sı kreditin əldə olunması, 5-i isə vergilərin ödənilməsi sahəsinə aiddir. Beynəlxalq hesabatlar arasında ənənəvi iqtisadiyyatdan innovativ iqtisadiyyata keçidi müfəssəl qiymətləndirən «Qlobal innovasiyalar indeksi» müstəqil beyin mərkəzləri və ekspertlər, QHT-lər, habelə xarici investorlar tərəfindən daim izlənilir. 2018-ci ilə aid hesabat özündə müxtəlif çağırışları əhatə edir ki, bunlar da enerji resurslarının diversifikasiyası, innovativ enerji resurslarına keçid, enerji resurslarından səmərəli istifadə üçün yüksək texnologiyaların rolu və alternativ enerji mənbələrindən ibarətdir.

İqtisadçı ekspert Nicat Hacızadənin sözlərinə görə, hesabatda innovatorlar dörd qrupa ayrılmışdır. Buraya gəlirlər üzrə ən yüksək, yuxarı-orta, aşağı-orta və ən aşağı qrup ölkələr daxildir: «Hesabata əsasən, əvvəlki dövrlərə nisbətən dünyanın yüksək gəlirli ölkələri də daxil olmaqla, innovasiya əsaslı inkişafa, elm və tədqiqata investisiyalar azalmışdır. Buna baxmayaraq, dünya ölkələri arasında Çinin və Malaziyanın sözügedən sahələrə investisiyaları artmışdır. Çində qlobal R&D (araşdırma və inkişaf) şirkətləri, tədqiqatçıların sayı, o cümlədən patent və ixtiralar ötən 10 illə müqayisədə kifayət qədər artmışdır». Bildirilmişdir ki, dünyanın ilk iyirmiliyinə daxil olan ölkələrin əsas özəlliyi yaşıl iqtisadiyyata, xüsusilə alternativ enerji mənbələrinə investisiyaların artırması, habelə ixrac portfelində yüksək texnologiyalara və yaşıl enerjiyə yer ayırmasıdır.

Hesabatda son illər biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan islahatların nəticələri ölkəmizin irəliləməsinə təsir göstərmişdir. Azərbaycan «Biznes mühiti» indikatoru üzrə 38-ci, «Biznesə daha asan başlama» alt indikatoru üzrə isə 15-ci yerdə qərarlaşmışdır. Qlobal R&D şirkətləri üzrə Azərbaycan dünya ölkələri arasında 40-cı, elektron hökumət xidmətləri üzrə isə 126 ölkə arasında 47-ci yeri tutur. Ən yaxşı nəticə isə «Bazarın inkişafı» indikatoru üzrə əldə edilib: 26-cı yer. Mikromaliyyə kreditlərinin ÜDM-də payı indikatoru üzrə Azərbaycan 12-ci, investorların qorunması sub-indikatoru üzrə isə 10-cu yerdə qərarlaşmışdır».

Ekspertin sözlərinə görə, kiçik və orta sahibkarlıq üzrə strateji yol xəritələrində də hədəf kimi qarşıya qoyulan elm-təhsil-istehsalat və klasterləşmə «Qlobal innovasiyalar» indeksində yüksək qiymətləndirilmişdir. Universitet-sənaye əməkdaşlığı üzrə ölkəmiz 33-cü, klasterləşmə üzrə isə 34-cü yerdədir.

**Fəxriyyə İKRAMQIZI**

# Fərdi sahibkarların vergi öhdəlikləri

**Sahibkarlıq fəaliyyətindən gəlir əldə edən və vergi uçotuna gəlir vergisinin ödəyicisi kimi alınan fərdi sahibkar hesabat ili ərzində əldə etdiyi gəlirdən, yəni əldə olunan vergi tutulan gəlirlərlə bu gəlirlərin əldə olunmasına çəkilən və Vergi Məcəlləsinin X fəslinə uyğun olaraq gəlirdən çıxıla bilən xərclərin fərqindən 20% dərəcə ilə gəlir vergisini hesablamalıdır.**

Gəlir vergisinin ödəyicisi olan fərdi sahibkar hesabat ili ərzində rübdə bir dəfə Vergi Məcəlləsinin 151-ci maddəsində qeyd olunan qaydada gəlir vergisi üzrə hesablanmış cari vergi məbləğini büdcəyə ödəməli, hesabat ili başa çatdıqdan sonra isə bəyannamənin təqdim olunmasınadək büdcə ilə son haqq-hesabı aparmalıdır.

Sahibkarlıq fəaliyyəti çərçivəsində vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan gəlir vergisinin ödəyicisi növbəti ayın 10 günü ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməli, vergi orqanı tərəfindən ƏDV qeydiyyatına alındıqdan sonra isə ƏDV ödəyicisinin vergi öhdəliklərini yerinə yetirməlidir.

Qeyd edək ki, bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 200.000 manatdan artıq olduqda, bu əməliyyat artıq ƏDV tutulan əməliyyat sayılır və əməliyyatı həyata keçirən vergi ödəyicisi əməliyyatın aparıldığı günədək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə ilə vergi orqanına müraciət etməlidir.

Bundan başqa, gəlir vergisinin ödəyicisinin vergitutma obyekti olduqda digər vergi öhdəlikləri də ola bilər:

**Torpaq vergisi üzrə** - Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər də torpaq vergisinin ödəyiciləri hesab olunur ki, onların torpaq vergisi illik olaraq bələdiyyələr tərəfindən hesablanır, həmin vergilərin ödənilməsi barədə tədiyyə bildirişi isə avqust ayının 1-dən gec olmayaraq onlara çatdırılır, hesablanmış vergilər bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Kənd təsərrüfatı torpaqları üzrə hesablanmış torpaq vergisi təyinatı üzrə istifadə edildiyi və ya təyinatı üzrə istifadə edilməsi mümkün olmayan hallarda yerli büdcəyə (bələdiyyə büdcəsinə), təyinatı üzrə istifadə edilmədiyi halda isə dövlət büdcəsinə ödənilir.

**Əmlak vergisi üzrə** - rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri (bina), habelə yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus olan su və hava nəqliyyat vasitələri əmlak vergisinin vergitutma obyekti hesab olunur. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən binaların yaşayış sahəsinin 30 kvadratmetrdən artıq olan hissəsinin (balkon və ya eyvanlar istisna olmaqla) hər 1 kvadratmetrə görə Vergi Məcəlləsində göstərilən dərəcələr tətbiq edilməklə (bina Bakı şəhərində yerləşərkən həmin dərəcələrə əlavə olaraq 0,7-1,5 aralığında müəyyən olunan əmsallar da tətbiq olunmaqla), su və hava nəqliyyatı vasitəsinin mühərrikinin 1 kubsantimetri üçün 0,02 manat, mühərriki olmayan su və hava nəqliyyatı vasitələri üçün isə onların bazar qiymətinin 1 faizi həcmində hesablanaraq avqustun 1-dən gec olmayaraq tədiyyə bildirişi ilə fiziki şəxsə bildirilir, həmin şəxslər isə verginin məbləğini cari il bərabər hissələrlə avqustun 15-dək və noyabrın 15-dək yerli (bələdiyyə) büdcəsinə ödəyirlər.

**Yol vergisi üzrə** - Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal edilən avtomobil benzini, dizel yanacağı və maye qaz yol vergisinin vergitutma obyektidir. Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi onların hər litrinin topdansatış qiymətinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə hesablanır. İdxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin onların hər litrinin topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə hesablanır.

Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan şəxslər yol vergisini aylıq olaraq hesablamalı və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq yol vergisi bəyannaməsini vergi orqanına təqdim etməklə həmin müddətdən gec olmayaraq vergini dövlət büdcəsinə ödəməlidirlər.

**Mədən vergisi üzrə** - yerin təkindən çıxarılan faydalı qazıntıların növündən asılı olaraq onların topdansatış qiymətlərinə və ya hər kubmetrinə Vergi Məcəlləsinin 216-cı maddəsində göstərilən dərəcələrin tətbiqi yolu ilə hesablanan vergi məbləği hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Mədən vergisi bəyannaməsi» ilə faydalı qazıntının növünə uyğun olaraq vergi və ya bələdiyyə orqanına bəyan edilərək dövlət və ya bələdiyyə büdcəsinə ödənilməlidir.

**Aksiz vergisi üzrə** - Azərbaycan Respublikası ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan şəxs aksizli malların növündən və əməliyyatın xarakterindən asılı olaraq Vergi Məcəlləsinin XII fəslinin və Nazirlər Kabinetinin Qərarlarının (19 yanvar 2001-ci il tarixli 20 nömrəli, 6 yanvar 2007-ci il tarixli 1 nömrəli, 29 may 2007-ci il tarixli 85 nömrəli) müddəalarına uyğun olaraq hesablanan vergi məbləğini hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Aksiz bəyannaməsi» ilə vergi orqanına bəyan etməli və həmin müddətdən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə ödəməlidir.

**Ödəmə mənbəyində muzdlu işlə əlaqədar alınan gəlirdən tutulan vergi üzrə** - işəgötürən şəxs muzdla işləyən işçinin aylıq gəlirindən Vergi Məcəlləsinin 101.1-ci maddəsində göstərilən dərəcələrlə hesablanan gəlir vergisini növbəti ayın 20-dən gec olmayaraq büdcəyə köçürməli, ƏDV ödəyicisi olmadıqda hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq «Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi» ilə vergi orqanına bəyan etməlidir;

ƏDV məqsədləri üçün qeydiyyata alınmış fiziki şəxs və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən isə müvafiq bəyannamə hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq vergi orqanına bəyan etməlidir.

**Rəşad SADIQOV**

# Xidməti müqavilə kimə sərfəlidir: işəgötürənə, yoxsa işçiyə?

## Bəzi biznes strukturları vergi və sosial ödənişlərdən yayınmanın yeni üsulunu «tapıb»

Sahil Əzizov tanınmış dizayn şirkətlərindən birinin əməkdaşıdır. 21 illik staja malik Sahil əmək fəaliyyətinə başladığı gündən işəgötürənlə əmək müqaviləsi bağlayıb və müqavilənin şərtlərinə uyğun olaraq istirahət və məzuniyyət günlərindən, əlavə məzuniyyətdən, Əmək Məcəlləsində nəzərdə tutulan digər sosial üstünlüklərdən bəhrələnib. Ona aid vergi və sosial ödənişlər də qanunamüvafiq qaydada çalışdığı şirkət tərəfindən ödənilib. Lakin bütün bunlar 2015-ci ilin payızınadək davam edib.

«2015-ci ilin sentyabrında şirkətdəki işçilərin bir qismi ilə əmək müqaviləsini ləğv edib onlarla xidməti müqavilə bağladılar. Səbəbini isə belə izah etdilər ki, şirkətin əməkhaqqı xərcləri yüksəkdir və bunu azaltmaq lazımdır. Ancaq heç kəsi işdən azad etmək istəmirdilər, öz işinin ustası olan bu adamların işdən uzaqlaşdırılması şirkətə daxil olan sifarişləri azalda bilərdi. Ona görə də işçilərin bir qismini əvvəlki qaydada işdə saxladılar, bir qismi ilə də xidməti müqavilə bağladılar», - qrafik dizayner vəzifəsində çalışmış Sahil Əzizov deyir.

Əslində nə Sahil Əzizovun çalışdığı şirkətin fəaliyyətində, nə də onun özünün iş rejimində heç nə dəyişməmişdi. Şirkət indiyə qədər fəaliyyətini əvvəlki əmək kollektivi ilə və həmin iş rejimində davam etdirir. Sahil Əzizov da, xidməti müqavilə bağlanmış digərləri də əmək müqaviləsi əsasında çalışan işçilər kimi hər gün əvvəlki rejimdə və qrafikdə işə gəlir, şirkətin tapşırıqlarını yerinə yetirib əməkhaqqı alır, ildə bir dəfə məzuniyyətə gedir və s. Yeganə dəyişiklik odur ki, şirkət tərəfindən xidməti müqavilə əsasında işləyən işçilərə ödənilən məbləğ əməkhaqqı deyil, xidməthaqqı kimi rəsmiləşdirilir. Başqa sözlə, onlar əməkhaqqını sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxs kimi adına VÖEN açdırmaqla əməkhaqqı alır. Bu zaman həmin işçilər şirkətin onlara ödədiyi məbləğin 4 faizini vergi orqanına, 3 faizini isə Dövlət Sosial Müdafiə Fonduna ödəyir.

«Biz rəhbərliyin tələbini yerinə yetirməsək, iş yeri ilə vidalaşmalı olacaqdıq. Çünki gözləmədiyimiz halda işçilərin yarıya qədəri ilə əmək müqaviləsinə xitam verildi və bunun əvəzində xidməti müqavilə bağlamaq təklif olundu. İşimizi itirməmək naminə xidməti müqavilə əsasında işləmək təklifini qəbul etdik» - deyə, Sahil Əzizov vəziyyəti izah edir.

İşəgötürənlə işçilər arasında əmək münasibətlərinin bu şəkildə «qaydaya salınması» təkcə Sahil Əzizovun çalışdığı şirkətə aid deyil. Son illər bəzi işəgötürən təşkilatlar işçiləri əmək müqaviləsi deyil, xidməti müqavilə əsasında işə götürməyə başlayıb. Məqsəd işəgötürənin vergi orqanları qarşısında məsuliyyətini azaltmaq, vergilərdən və sosial ödənişlərdən yayınmaqdır. Mövcud qanunvericilik əmək münasibətlərinin xidməti müqavilələr əsasında tənzimlənməsini qadağan etməsə də, əmək müqaviləsindən fərqli olaraq, xidməti müqavilə mülki-hüquqi xarakter daşıdığından xidmət göstərənin, yəni işçinin vergi və sosial ödənişlərlə bağlı öhdəliklərini sifarişçinin (işəgötürənin) deyil, icraçının (işçinin) üzərinə qoyur.

### Ən çox pozuntu bu sahələrdədir

Yeri gəlmişkən, Vergilər Nazirliyinin Prezident İlham Əliyevin 9 oktyabr 2017-ci il tarixli 3287 saylı sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı»na uyğun olaraq digər icraçı qismində həyata keçirdiyi nəzarət tədbirləri nəticəsində xeyli maraqlı məqamlar üzə çıxıb. Əmək münasibətlərinin rəsmiləşdirilməsinə dair bu ilin yanvar-may ayları ərzində həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələri təhlil edilib və məlum olub ki, iqtisadiyyatın müxtəlif sahələrindəki fəaliyyət subyektlərində işçilərlə əmək münasibətlərinin xidməti müqavilələrlə rəsmiləşdirilməsi halları üstünlük təşkil edir. Bu ilin ilk beş ayı ərzində həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələri Vergi öhdəliklərinin icrasına nəzarət departamentində təhlil olunub. Müəyyən edilib ki, həmin dövrdə vergi ödəyicisinin məsuliyyəti məsələsinə baxılması barədə qərar çıxarılmış nəzarət tədbirləri üzrə ümumilikdə 279 halda 847 nəfər fiziki şəxs Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərə (xidmətlərə) cəlb edilib.

Bu cür qanun pozuntularına pərakəndə ticarət, ictimai iaşə və istehsal sahələrində daha çox yol verilib. Belə ki, pozuntu hallarının ümumi sayında pərakəndə ticarət obyektlərinin xüsusi çəkisi 11,8 faiz, ictimai iaşə obyektləri üzrə 24,7 faiz, istehsal obyektləri üzrə 13,6 faiz, digər fəaliyyət sahələri üzrə isə 49,8 faiz təşkil edib. Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunmuş 847 nəfərdən 156-sı (və ya 18,4 faizi) pərakəndə ticarət, 288-i (34 faizi) ictimai iaşə, 110-u (13 faizi) istehsal, 293 nəfər (34,6 faizi) isə digər fəaliyyət sahələri üzrə aşkarlanıb.

Bəs işəgötürən təşkilatlar işçilərlə niyə əmək müqaviləsi deyil, xidməti müqavilə bağlamağa üstünlük verir? Tanınmış ekspert, Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədov bildirir ki, xidməti müqavilə işçinin ziyanınadır və yalnız işəgötürən tərəfin maraq və mənafelərinə xidmət edir. Əmək müqaviləsindən fərqli olaraq, işçilərlə xidməti müqavilə əsasında işləmək işəgötürən tərəfin vergi və sosial ödənişlər yükünü yüngülləşdirir: «Xidməti müqavilə imzalayan işçi mütləq fiziki şəxs kimi vergi orqanlarında qeydiyyatdan keçməli və onun VÖEN-i olmalıdır. Bundan sonra o, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs kimi sadələşdirilmiş vergi ödəyicisi sayılır. Bu isə o deməkdir ki, həmin şəxs işəgötürənə, yaxud başqa sifarişçilərə göstərdiyi xidmətlər müqabilində aldığı ödənişlərin müəyyən hissəsini sadələşdirilmiş vergi şəklində dövlət büdcəsinə ödəməlidir. Verginin həcmi Bakı şəhərində 4 faiz, regionlarda isə 2 faiz təşkil edir. Dövlət Sosial Müdafiə Fonduna ödəmələr isə ayda 23 manat 20 qəpikdir. Bu zaman vergi öhdəliyi və sosial ödənişlər etməsi işçinin öz öhdəliyidir və sifarişçi heç bir məsuliyyət daşımır».

Ekspertin sözlərinə görə, əmək müqaviləsində isə vergi və sosial ödənişlər məsələsi fərqlidir. Yəni işəgötürən əməkhaqqının 14 faizini (gəlir vergisi) tutaraq dövlət büdcəsinə ödəyir, bundan əlavə, əmək müqaviləsi üzrə işləyən işçi 3 faiz həcmində Dövlət Sosial Müdafiə Fonduna ödəniş edir və bu məbləğ işəgötürən tərəfindən tutulur. Lakin sosial ödənişlər bununla bitmir. İşəgötürən özü işçinin ümumi əməkhaqqının 22 faiz həcmində hissəsini sığorta haqqı kimi ödəməlidir. Bu da işəgötürənlərin xidmət müqaviləsinə üstünlük verməsinin əsas səbəblərindən biridir.

### Xidməti müqavilə ilə işləyənlərin pensiya təminatı sual altındadır

Əmək müqaviləsi bağlanmadıqda və aylıq əməkhaqqı göstərilmədikdə hər hansı bir mübahisə yaranarsa, işçi faktiki aldığı əməkhaqqını tələb etmək hüququnu və qanunla ona ödənilməli müavinətləri itirir. Həmçinin, müqavilədə əməkhaqqının göstərilməməsi işçinin gələcəkdə pensiya təminatına da mənfi təsir edir. Xidməti müqavilə ilə işləyən işçilər əksər hallarda sosial ödənişlərdən yayınır, yaxud da bu öhdəlik düzgün məbləğdə yerinə yetirilmir.

Yeri gəlmişkən, «Əmək pensiyaları haqqında» Qanuna edilən dəyişiklik xidməti müqavilə ilə işləyənlərin gələcək pensiya təminatını sual altında qoyur. Çünki xidməti müqavilə ilə işləyənlərə əmək stajı hesablanmır və onların gələcək pensiya təminatı əsasən sosial sığorta ödənişlərinin məbləğindən asılı olacaq. Mövcud qanunvericiliyə görə, xidməti müqavilə ilə işləyənlər ayda 23 manat 20 qəpik məbləğində sosial sığorta haqqı ödəməlidirlər. Bu halda xidməti müqavilə ilə 24 il işləyən şəxs Dövlət Sosial Müdafiə Fondundakı fərdi hesabına 6324 manat yığa bilər. Pensiyaya çıxmaq üçünsə həmin hesabda 6600 manat vəsait olmalıdır. Deməli, indiki şərtlərlə xidməti müqavilə ilə 24 il işləyən şəxs hər ay 55 manat, 12 il işləyən şəxs isə 110 manat məbləğində sosial sığorta haqqı ödəməlidir ki, 65 yaşına çatanda pensiya ala bilsin.

Əmək müqaviləsi əsasında işləyənlər üçün işçi Dövlət Sosial Müdafiə Fonduna əməkhaqqının 3 faizi həcmində ödəniş edir və bu məbləğ də işəgötürən tərəfindən tutularaq icra edilir. İşəgötürən özü isə işçinin ümumi əməkhaqqının 22 faiz həcmində hissəsini sığorta haqqı kimi ödəyir ki, bu da əmək müqaviləsi ilə işləyən işçinin gələcək pensiya təminatını formalaşdıran vacib faktordur.

### Xidməti müqavilə ilə işləyənlərin itirdikləri

Sahib Məmmədov bildirir ki, xidməti müqavilə əsasında işləyən işçi həmin müqavilədə Əmək Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulan tələbləri rəsmiləşdirməyibsə, işçi kimi bir çox hüquqlarından məhrum edilmiş sayılır. Buraya aşağıdakılar daxildir:

- Əmək kitabçası açılmır və iş stajı hesablanmır;
- İşçilər ödənişli məzuniyyət, yəni 21 təqvim günündən az olmayan əsas əmək məzuniyyəti, iş stajına görə əlavə məzuniyyət, əmək şəraitinə və işin xarakterinə görə əlavə məzuniyyət hüququnu itirir;
- Hamiləliyə və doğuşa görə qismən ödənişli sosial məzuniyyət hüquqlarından məhrum olurlar;
- Xidməti müqaviləyə xitam verilərkən istifadə edilməmiş məzuniyyətin pul əvəzi verilmir;
- İşçi əmək xəsarəti aldıqda və ya peşə xəstəliyinə tutulduqda müavinət ala bilmir;
- İşəgötürən (sifarişçi) müxtəlif bəhanələrlə işçi ilə əmək münasibətlərinə xitam verə bilər. Bu zaman sifarişçi Əmək Məcəlləsində göstərilən tələblərə görə hər hansı məsuliyyət və sosial öhdəlik daşımır.

**Elxan SALAHOV**

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## BİR CÜMLƏ - BİR XƏBƏR

İyulun 16-da Mərkəzi Bank tərəfindən vəsaitlərin cəlb edilməsi üzrə keçirilmiş növbəti depozit hərracında tələb 886,4 milyon manat, hərracın nəticəsində bağlanılmış depozit əqdləri üzrə orta ölçülmüş faiz dərəcəsi isə 8,01 təşkil edib.

Bu ilin ikinci rübündə Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən 4 milyard 608 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib, bununla da indiyədək Neft Fondunun dövlət büdcəsinə transfertləri 84 milyard 524 milyon manata çatıb.

İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə Rəşt şəhərində iş adamları ilə keçirdiyi görüşdə deyib ki, Qəzvin-Rəşt-Astara dəmir yolu xəttinin istifadəyə verilməsindən sonra İran ilə Azərbaycan arasındakı ticarət dövriyyəsinin həcmi 2 milyard dollara çatacaq.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən «Əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol» adlı yeni sosial kampaniyaya start verilib.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan** **2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Ədalətsiz rəqabət dövləti vergilərdən, sahibkarı gəlirlərdən məhrum edir

## Mobil telefon bazarının tənzimlənməsinə ciddi ehtiyac var

Müasir texnologiyaların sürətli inkişafı hər kəsin həyatının zəruri bir elementinə çevrilmiş mobil telefon bazarında daimi hərəkətlilik yaradır. Hazırda mobil telefonlar funksiyalarının çoxluğuna görə bir sıra elektrik məhsullarının əvəzedicisi rolunda çıxış edir. Funksional dəyişikliklər həyatla ayaqlaşmaq üçün həm də keyfiyyət tələb edir. Təəssüflər olsun ki, istehlakçıların böyük hissəsi qiymətin ucuzluğuna aldanaraq saxta telefonlara üstünlük verir. Nəticədə bu cür cihazlara bazarda tələbat artır və bəzi işbazlar bu fürsətdən istifadə edib saxta malları kütləvi şəkildə ölkəyə daşımaqda davam edirlər.

### Saxta telefonların iqtisadi fəsadları

Saxta telefonlar Azərbaycana, aydın məsələdir ki, qaçaqmalçılıq yolu ilə gətirilir və qeyri-qanuni satılır. Bu isə gömrük və vergi qanunvericiliyinin ciddi şəkildə pozulması ilə yanaşı, həm də haqsız rəqabət mühitinin, qeyri-leqal bazarın formalaşmasına səbəb olur. Qeyri-leqal bazarın iştirakçıları vergi ödəməkdən yayınır və bununla da dövlət büdcəsi böyük məbləğdə vəsaitlərdən məhrum olur. Ölkəmizdə telefon satışı ilə məşğul olan rəsmi distribütorların açıqladığı rəqəmlərə görə, qaçaqmalçıların fəaliyyəti hər ay büdcədən 4-5 milyon manat vəsaitin yayındırılmasına yol açır. Bu isə hər bir vətəndaşın rihafının təmin olunmasına öz təsirini göstərir.

Qaçaqmalçılıq yolu ilə gətirilmiş malların ticarəti kiçik və orta biznesin inkişafına da ciddi əngəllər yaradır. Qanuni ticarətlə məşğul olan mağaza sahibləri qanunsuz sxemlərin qurbanı olurlar...

### Təkmil nəzarət istehlakçıların marağına xidmət edir

Mobil telefon bazarına təkmil nəzarət sisteminin tətbiqindən ilk növbədə istehlakçılar faydalanacaqlar. Çünki ölkəyə qeyri-qanuni yollarla gətirilən telefonlar istehlakçıların hüquqlarının pozulmasına yol açır, vətəndaşlar bu telefonları ucuz qiymətə alsalar da, bir müddət sonra onun keyfiyyəti və zəmanəti ilə bağlı problemlər ortaya çıxır. İstehlakçılar telefonu alan zaman yazılı zəmanət, keyfiyyət göstəriciləri haqqında təlimat və sertifikat, çek və s. əldə edə bilməkləri üçün cihazda hər hansı nasazlıq yarananda pulsuz diaqnostika və təmir xidmətindən yararlana bilmirlər. Sonrakı peşmançılıq isə fayda vermir. Necə deyərlər, ucuz ətin şorbası da ucuz olur... Belə hallara qarşı mübarizənin təsirli formalarından biri bazar iştirakçılarının, xüsusilə istehlakçıların maarifləndirilməsidir. Vergilər Nazirliyinin və Dövlət Gömrük Komitəsinin nümayəndələri sahibkarlarla görüşlərdə onları maarifləndirmək yolu ilə leqal iqtisadiyyatın bərqərar olması, güclənməsi üçün mənəvi əsas yaratmağa böyük əhəmiyyət verirlər. Vergi və gömrük sistemlərində aparılan islahatlar, struktur və institusional dəyişikliklər, yeni iqtisadi modellərin qurulması funksional idarəetmənin səmərəliliyinin artırılmasına, vergi və gömrük orqanlarının fəaliyyəti üzərində nəzarətin gücləndirilməsinə, şəffaf iqtisadi sistemin hədəflərini ehtiva edən dinamik struktura malik müasir inzibatçılığın qurulmasına xidmət edir.

### Bazar iştirakçıları haqsız rəqabətdən narazıdırlar

Azərbaycanda telefon satışı üzrə bir neçə rəsmi distribütor fəaliyyət göstərir. Onlar ölkəyə gətirdikləri telefonların keyfiyyəti ilə bağlı hüquq çərçivəsində məsuliyyət daşıyırlar. Distribütorların təxmini hesablamalarına görə, hazırda mobil telefonlar seqmentində «boz» bazarın - saxta yolla gətirilib satılan cihazların nisbəti 80 faizə çatır. Onların iddiasına əsasən, məşhur dünya şirkətlərinin əmtəə nişanı olan malların qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsi fəaliyyətini qanun çərçivəsində quran şirkətlərdə satışların əsaslı şəkildə azalmasına səbəb olur.

Müşahidələr göstərir ki, saxta telefonların satış nöqtələrində qiymətlər bu malları rəsmi idxal edən şirkətlərin təklif etdikləri qiymətlərdən, ən azı, vergidən yayındırılmış məbləğ qədər aşağı olur.

Qaçaqmalçılıq yolu ilə malların ölkəmizə daxil olmasının əsas səbəbi fiziki şəxslər tərəfindən mobil cihazların respublika ərazisinə gətirilməsinə nəzarətin və müvafiq tənzimləmə mexanizminin mükəmməl olmaması ilə bağlıdır. Sərt və işlək nəzarət mexanizmlərinin olmaması kriminal elementlərə ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə cihazların gətirilməsinə, beləliklə də vergidən yayınma hallarının yaranmasına imkan verir. Burada dövlətin üzləşdiyi itki ilə yanaşı, öz işinə vicdanla yanaşan sahibkarlar da ziyan çəkir: rəsmi distribütorların və qanunlara əməl edən digər vergi ödəyicilərinin fəaliyyəti ədalətsiz rəqabət nəticəsində risk altına düşmüş olur.

Mütəxəssislərin fikrincə, bu sahəni xüsusi qaydalarla tənzimləməyə ehtiyac var. Nəzarət mexanizminin gücləndirilməsi fəaliyyətini qanun çərçivəsində quran, alıcıları keyfiyyətli xidmət və zəmanətlə təmin edən biznes strukturları üçün sərfəlidir. Təkmil nəzarət sisteminin tətbiqi qeyri-sağlam rəqabəti aradan qaldıracaq, distribütorlar və ya idxalçılar ancaq öz xidmətlərinin və məhsullarının keyfiyyəti ilə və istehlakçıların məmnunluğunu qazanmaq uğrunda rəqabət aparacaqlar. Qaçaqmalçılığın qarşısı alınsa, rəsmi şirkətlər öz səylərini yeni xidmətlər və məhsullar təklif etməyə yönəldə bilərlər. Hazırkı şəraitdə dünya şöhrətli istehsalçılar Azərbaycanda mobil bazara sərmayə qoymağa ehtiyat edirlər. Mütəxəssislər məhz bu məqamdan çıxış edərək onu da vurğulayırlar ki, qaçalmalçılığın qarşısının alınması mobil telefonların qiymətinin artmasına səbəb olmayacaq, əksinə, Azərbaycan bazarına həvəslə gələn ciddi istehsalçılar arasında sağlam rəqabətin formalaşması qiymətlərin enməsi ilə nəticələnək.

### Beynəlxalq təcrübədə qaçaqmalçılığa qarşı sərt cəzalar tətbiq edilir

Azərbaycana malların qaçaqmalçılıq yolu ilə gətirilməsinə qarşı nəzarət tədbirlərinin gücləndirilməsi müasir çağırışlardan irəli gəlir. Yeni dövrün qlobal çağırışlarına uyğun fəaliyyət göstərmək üçün bu sahədə dünya təcrübəsinin öyrənilməsi və tətbiqi zəruridir.

Məsələn, Türkiyə bu problemin qısa müddətdə həlli yolunu tapa bilib: qüvvədə olan «Qaçaqmalçılıqla mübarizə» Qanununa görə, həmin şəxslərə 1 ildən 5 ilə kimi həbs və 10.000 günə qədər icbari əmək (adli para) formasında cəza tətbiq olunur. Məhkəmə təqsirkar şəxsin əmlak vəziyyətini və işin tərəflərini nəzərə alaraq, gündəlik cərimə miqdarını 20-100 türk lirəsi miqdarında təyin edir.

Yəqin ki, ölkəmizdə də dünya təcrübəsindən yararlanaraq daha sərt nəzarət tədbirləri tətbiq etmək artıq günümüzün tələbinə çevrilib...

# Sahibkarlığın inkişafı dövlətin başlıca prioritetlərindəndir

İqtisadiyyat Nazirliyinin geniş kollegiya iclasında ölkə iqtisadiyyatının mövcud mənzərəsi və perspektivləri müzakirə olunub. Qeyd edilib ki, sənaye parklarına indiyədək 2,6 milyard dollar investisiya yatırılıb, tikintidə və istehsalda 11 minə yaxın iş yeri yaradılıb. Növbəti mərhələdə investisiya qoyuluşunun 3,6 milyard dollara çatdırılması və 7500-dək yeni iş yerinin açılması nəzərdə tutulur.

Bildirilib ki, artıq Sumqayıt Kimya Sənaye Parkında 7 müəssisə fəaliyyət göstərir, 2018-ci ilin sonunadək daha 7 müəssisə istifadəyə veriləcək. Ölkəmizdə «yaşıl iqtisadiyyat»ın inkişaf etdirilməsi məqsədilə yaradılmış Balaxanı Sənaye Parkının hazırda 14 rezidenti var, onlardan 5-i artıq fəaliyyət göstərir. Rezidentlər tərəfindən parka ümumilikdə 32 milyon manat məbləğində investisiya yatırılıb. Sahibkarların marağı nəzərə alınaraq, parkın ərazisi 8,3 hektaradək genişləndirilib. Balaxanı Sənaye Parkında ilkin mərhələdə 400-ə yaxın daimi iş yeri yaradılıb. İkinci mərhələdə daha 9 istehsal sahəsinin tikintisinə başlanacaq.

Pirallahı Sənaye Parkında ümumi dəyəri 100 milyon dollar olan əczaçılıq və şpris istehsalı müəssisələrinin yaradılması işləri aparılır. İlin sonuna istifadəyə veriləcək şpris zavodu daxili tələbatı ödəməklə yanaşı, ixrac imkanları da yaradacaq. Mingəçevir Sənaye Parkında investisiya dəyəri 85 milyon dollar olan 2 iplik fabrikində 750 nəfər işlə təmin olunub. Ölkədə ilk sənaye zonası olan Neftçala Sənaye Məhəlləsində 8 müəssisə artıq fəaliyyətə başlayıb, bu müəssisələr üzrə 45 milyon manatdan çox investisiya qoyulub, 500-ə yaxın yeni iş yeri yaradılıb. Bu ilin mart ayının sonunda Azərbaycan və İran prezidentlərinin iştirakı ilə Neftçala Sənaye Məhəlləsində açılmış «Xəzər» avtomobil zavodunda ildə 10 min avtomobil istehsal olunacaq. Bu avtomobillər daxili bazarla yanaşı, bir sıra xarici ölkələrə də ixrac ediləcək. Masallı Sənaye Məhəlləsinin tikintisi başa çatdırılıb, Hacıqabul və Sabirabad Sənaye məhəllələri ilin sonunadək istifadəyə veriləcək.

Qeyd olunub ki, 2018-ci ildə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 468,1 milyon manat olan 611 sahibkara geri qaytarılan vəsaitlər hesabına 100 milyon manatdan çox güzəştli kredit verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur. Bu layihələr hesabına illik müqayisədə 3 dəfə çox olmaqla 7 mindən artıq yeni iş yerinin açılması nəzərdə tutulur. Ümumilikdə, 2018-ci ildə geri qaytarılan vəsaitlər hesabına sahibkarlara azı 170 milyon manat güzəştli kredit veriləcək. Aqrar sektorun inkişafı məqsədilə 30 rayon üzrə 192 min hektar ərazidə ümumi dəyəri 1 milyard manatdan artıq olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Aqroparklarda zəruri infrastrukturun yaradılmasına 207 milyon manat dövlət əsaslı vəsait qoyulub, 111 milyon manat güzəştli kredit və dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib. İlin sonunadək 14 aqropark istifadəyə veriləcək. Fəaliyyət göstərən aqropark və iri fermer təsərrüfatlarında 50 min hektardan artıq ərazidə müasir suvarma sistemlərinin tətbiqi nəticəsində buğda, arpa, dənlik qarğıdalı və digər kənd təsərrüfatı bitkiləri üzrə hər hektardan əldə edilmiş orta məhsuldarlıq ölkə üzrə müvafiq göstəricilərdən 2 dəfəyədək çoxdur.

İqtisadi fəallığın artırılması, ixracyönümlü məhsulların istehsalının dəstəklənməsi, investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə, 55-i bu ilin birinci yarısında olmaqla, indiyədək 261 sahibkarlıq subyektinə 294 investisiya təşviqi sənədi verilib ki, bu layihələrin reallaşması nəticəsində yerli istehsala 2,5 milyard manat investisiyanın yatırılması və 19 mindən çox yeni iş yeri açılması imkanı yaradılıb, bunlardan investisiya dəyəri 1 milyard manatdan çox olan 141 müəssisə artıq fəaliyyət göstərir.

İndiyədək 15 ixrac missiyası təşkil olunub, Azərbaycan şirkətləri 11 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak edib, ilkin razılaşmalar və sifarişlər əldə olunub, ixrac müqavilələri imzalanıb, ixrac təşviqinin ödənilməsi davam etdirilib və 2018-ci ilin birinci yarısında sahibkarlara 2,2 mln. manat, indiyədək isə 5,3 mln. manat ixrac təşviqi ödənilib. Rusiya, Çin, Birləşmiş Ərəb Əmirlikləri və Şərqi Avropada ticarət nümayəndələri fəaliyyət göstərir. Heydər Əliyev Fondunun dəstəyi ilə Rusiyanın Həştərxan şəhərində «Azərbaycan İş Mərkəzi» açılıb. Belarusda və Ukraynada Azərbaycan ticarət evləri açılıb, bu yaxınlarda Latviyada «Azərbaycan Ticarət Evi» fəaliyyətə başlayacaq, ilin sonunadək Çinin Şanxay şəhərində «Azərbaycan Şərab Evi», Birləşmiş Ərəb Əmirliklərində «Azərbaycan Ticarət Evi»nin açılması planlaşdırılır, Pekində və bir sıra digər iri şəhərlərdə ticarət və şərab evlərinin yaradılması nəzərdə tutulur.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin iyul və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin iyul və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## 2018-ci ilin iyul ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən** 2018-ci ilin 2-ci rübü üzrə hesablanmış cari ödəmələr iyul ayının 16-dan gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**2018-ci ilin iyun ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin iyul ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin iyul ayının 20-dən gec olmayaraq notariuslar tərəfindən vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2018-ci ilin 2-ci rübünə görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- **Sadələşdirilmiş verginin bəyannaməsini və**
- **Ödəmə mənbəyində tutulan vergi bəyannaməsini**

**cari ilin iyul ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Cari ilin 2-ci rübü üzrə muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsini** (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) iyul ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və iyun ayı üzrə hesablanmış vergini həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

*(ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər).*

- **Xüsusi notariusların gəlir vergisi bəyannaməsi**

**cari ilin iyul ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və iyun ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Dövlət rüsumu haqqında hesabat cari ilin iyul ayının 20-dək** vergi orqanına təqdim edilməlidir (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

beynəlxalq panoram

# Danimarka kiçik və orta biznesi dəstəkləyən yeni proqram hazırlayıb

Ölkənin vergi agentliyi 2019-cu ilin yanvarından kiçik və orta sahibkarlıq subyektlərini əlavə dəyər vergisi və vergi öhdəliklərinə əməletmə məsələlərində dəstəkləmək məqsədilə eksperimental sxemin tətbiqinə başlayacaq.

Agentliyin açıqlamasında bildirilmişdir ki, yeni «ƏDV və vergi yoxlaması» sxeminə əsasən, vergi ödəyicilərinin səhv etmək riski yüksək olan problemli sahələri müəyyənləşdirmək məqsədilə bir sıra seçilmiş vergi məsələlərinin (məsələn, kiçik və orta müəssisə işçilərinin mükafatlarının vergiyə cəlb edilməsi kimi) təhlilini apara biləcəklər. Bu, şirkətlərə cəza tədbirləri verilmədən onların öz səhvlərini müəyyənləşdirib aradan qaldırmalarına imkan yaradacaq. Bundan əlavə, belə bir addımın atılması vergi orqanları əməkdaşlarının qanunvericiliyə qəsdən əməletməmə hallarına qarşı mübarizə tədbirlərinə sərf etdiləri vaxtın əsaslı şəkildə azaldılmasına gətirib çıxaracaq.

Hökumətin rəsmi açıqlamasına əsasən, ölkədəki 600 min kiçik və orta müəssisənin yarısına yaxını - təxminən 46 faizi vergilərin ödənilməsində bilməyərəkdən səhvlərə yol verir, vergidən yayınma məqsədilə edilən səhvlər isə cəmi 10 faiz təşkil edir.

# İtaliya hökuməti onlayn ticarət üçün vergi tətbiq etməyə hazırlaşır

İtaliya senatının büdcə komitəsi bir sıra onlayn satış əməliyyatları üçün vergi tətbiq olunması təklifini qəbul etmişdir. 2018-ci il üzrə dövlət büdcəsinə dəyişiklik barədə qanun layihəsinə daxil olan bu təklifdə göstərilir ki, axtarış sistemləri və sosial şəbəkələr kimi iri onlayn platformalar vasitəsilə xidmətlər əldə edən şirkətlər və fiziki şəxslər məbləğin altı faizini tutaraq həmin vəsaiti İtaliyanın vergi orqanına köçürməlidirlər.

Təklif edilən vergi «Google» və «Facebook» kimi iri internet şirkətlərindən vergi yığımının artırılmasına yönəldilmişdir və bu addımın atılması büdcəyə ildə 114 milyon avro əlavə gəlir daxil olmasına şərait yaradacaq. Kiçik müəssisələr qəbilindən olan müəyyən vergi ödəyiciləri, eləcə də əməliyyatının məbləği 30 avrodan az olan fiziki şəxslər bu verginin yığılmasından azad ediləcəklər.

İlin sonuna qədər parlament tərəfindən təsdiq ediləcəyi təqdirdə, qanunun qüvvəyə minməsi 2019-cu ilin əvvəlinə gözlənilir. Hökumət avqust ayına qədər tədbirlərin ümumi həcmini dəqiqləşdirmək niyyətindədir.

# Büdcə kəsirinə yol verməmək üçün dolayı vergilər tövsiyə edilib

Beynəlxalq Valyuta Fondu (BVF) vergilərin azaldılmasını və xərclərin artırılmasını kompensasiya etmək məqsədilə ABŞ-a gəlirlərin artırılması üçün dolayı vergilər tətbiq etməyi məsləhət görmüşdür.

ABŞ iqtisadiyyatı haqqında iyulun əvvəlində nəşr edilmiş son hesabatda BVF-nin mövqeyi belədir ki, vergilərin azaldılması və məşğulluq haqqında qanunun qəbul olunması səyəsində itirilən gəlirlərin və xərclərin azaldılmasının uyğunlaşdırılması yaxın bir neçə il ərzində büdcə kəsirinin əsaslı şəkildə artmasına gətirib çıxaracaq. «Vergilərin və iş yerlərinin azaldılması haqqında qanunda çoxlu müsbət dəyişikliklər var, lakin bunların həm də büdcəyə ciddi təsiri var. Vergilərin azaldılması və məşğulluq haqqında qanunun bir çox müddəalarında göstərilmiş məqsədlərə itirilmiş gəlirlərin dolayı vergilərin artırılmasının əvəz edilməsi ilə nail olmaq daha yaxşı olardı». - hesabatda qeyd edilmişdir.

Məruzədə vergi islahatı tədbirləri ilə bağlı BVF-nin əvvəllər verdiyi şərhlər də öz əksini tapmışdır.

Fondun keçən ay ABŞ-da olmuş missiyasının 2018-ci il üzrə yekun bəyanatında qeyd edilmişdir ki, müəyyən olunmuş korporativ vergi dərəcələrinin OECD-nin təxmini orta və genişləndirilmiş müddəalara qədər azaldılması investisiyaların stimullaşdırılmasına və baza strukturunun itkisi və gəlirlərin dəyişməsi ilə bağlı motivasiyanın qaldırılmasına şərait yaradacaq.

Bunlala yanaşı, BVF gəlirlər üzrə yeni 20 faizlik çıxılmanı tənqid etmişdir. Fond mütəxəssisləri hesab edirlər ki, bu, yüksək gəlir əldə edən insanların vergidən yayınması üçün əhəmiyyətli dərəcədə imkanlar yaradır.

# Sinqapur vergi dərəcələrini artırır

Sinqapurun Baş katibi Li Syan Lunq bəyan etmişdir ki, hökumət xərclərin artmasını tarazlaşdırmaq naminə yaxın gələcəkdə vergiləri artırmağı planlaşdırır: «Hazırkı vəziyyət üçün kifayət qədər gəlirimiz var, bununla yanaşı, xərclərə tələbatımız da artacaq. Vergilərin artırılması ilə bağlı «nə üçün?» sualını deyil, «nə vaxt?» sualını vermək düzgün olardı.

Bundan əvvəl - 2018-ci ilin əvvəlində isə ölkənin maliyyə naziri Xenq Svid Kit xəbərdarlıq etmişdi ki, hökumət səhiyyə və infrastruktur sahələrinə ayrılan vəsaitləri artırdığına görə, Sinqapur daxili borclarla qarşılaşa bilər: «Biz gəlirlərin həcmini yeni vergilər hesabına və ya vergi dərəcələrini artırmaq yolu ilə böyüdə bilərik. Bu variantları diqqətlə təhlil edirik, vaxtında qərar qəbul etməliyik ki, gələcək nəsillər üçün dayanıqlı maliyyə bünövrəsi yaradaq».

Nazir qeyd etmişdir ki, hökumət 2020-ci ilə qədər öz tələbatlarının artırılması üçün kifayət qədər gəlir təmin etmək məqsədilə son beş il ərzində vergi strukturunu yenidən nəzərdən keçirmişdir. Qeyd edək ki, 2016-cı ildə Sinqapurda vergi daxilolmaları beş faiz artaraq 34,6 milyard ABŞ dollarına çatmışdır.



# ABŞ Dövlət Departamenti borclulara xarici pasport verilməsini dayandırıb

Hələ 2015-ci ildə qəbul edilmiş və bu ilin yanvar ayında qüvvəyə minmiş qanuna əsasən, qəsdən vergi ödəməyən şəxslərə xarici pasport verilməsi dayandırılmışdır. Ölkənin vergi administrasiyasının - Daxili Gəlirlər Xidmətinin qiymətləndirməsinin nəticələrinə görə, bu tədbir 362 mindən artıq vətəndaşı əhatə edəcək.

Qanunda göstərilir ki, vergi orqanları Dövlət Departamentini vergi borcu 51 min dollardan artıq olan şəxslər barədə məlumatlandırmalıdır. Bu tədbir çərçivəsində xarici siyasət idarəsinə də həmin şəxslərə pasportların verməsi və ya onların pasportlarının müddətinin uzadılması qadağan edilmişdir. Bununla yanaşı, Dövlət Departamenti əlində pasport olan vergi qaçaqlarının pasportlarını ləğv etməlidir.

Daxili Gəlirlər Xidmətinin nümayəndəsi Meri Bet Merfinin sözlərinə görə, hələlik sərhədi keçərkən şəxsiyyəti təsdiq edən sənədin verilməsindən imtina olunması ilə kifayətlənmək qərara alınmışdır. Lakin gec-tez vergi qaçaqlarının pasportlarının müddəti qurtaracaq. İndiki halda xarici ölkələrə getmək istəyirlərsə, onların yeni pasport üçün müraciəti rədd ediləcək.

Bundan əlavə, qanun qüvvəyə minəndən bəri keçmiş bir neçə ayın faktları təsdiq edir ki, tədbir öz sözünü deyir. İyun ayının sonuna olan vəziyyətə görə, 220 nəfər ümumilikdə 11,5 milyon dollar həcmində borclarını tam şəkildə ödəmişdir. Dövlətə vergi borcu olanlardan bir nəfər isə xaricə getmək üçün pasport ala bilmək üçün 1 milyon dollar həcmində borcunu ödəmişdir. İndiyədək 1,4 min nəfər vətəndaş öz vergi borclarını hissə-hissə ödəmək barədə müvafiq orqanlarla razılaşma əldə etmişlər ki, bu addımı atmaq onların adının «qara siyahı»dan çıxarılmasına imkan yaradır.

# Turistlərdən tutulan ƏDV qaytarılacaq

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) hakimiyyət dairələrinin mövqeyinə görə, belə bir sistemin - əlavə dəyər vergisinin qaytarılmasının tətbiqi ən yaxın vaxtlarda ölkəyə turist axınının gücləməsinə şərait yaradacaq. Nazirlər Kabinetinin qərarına əsasən, turistlər «fax free» proqramında iştirak edən mağazalardan aldıqları mallara ödədikləri əlavə dəyər vergisini geri ala biləcəklər. Planlaşdırıldığına görə, bununla bağlı müvafiq qərar bu ilin son rübündə qüvvəyə minəcək.

Xatırladaq ki, BƏƏ-də əlavə dəyər vergisi 2018-ci ilin yanvar ayından tətbiq edilir və bu verginin dərəcəsi cəmi beş faizdir. 2017-ci ildə BƏƏ-nin ümumi daxili məhsulunda turizm sektorunun payı 11,3 faiz, başqa sözlə, 42 milyard ABŞ dolları olmuşdu.

# Aİ yeni gömrük rüsumlarını müzakirə edib

İyulun 16-da Vyanada Avropa İttifaqı (Aİ) ölkələrinin iqtisadiyyat nazirləri Rəqabət Şurasının qeyri-rəsmi iclası keçirilib. Aİ-yə sədrlik edən Avstriyanın təşkilatçılığı ilə keçirilən iclasda qurumun rəqəmsallaşma üzrə komissarı Andruş Ansip və sənaye komissarı Elzbieta Bienkovska iştirak edirlər. «Avropa sənayesini yenidən düşünək» devizi altında keçirilən iclasda əsas müzakirə mövzu ABŞ ilə Aİ arasındakı ticarət münaqişəsi və Birləşmiş Ştatların tətbiq etdiyi əlavə gömrük rüsumlarına veriləcək cavab yollarının araşdırılması olub. Avstriyanın iqtisadiyyat və rəqəmsallaşma naziri Marqarete Şrammbök iclasdan öncə mətbuata verdiyi açıqlamada bildirib ki, müasir dövrdə sürətlə inkişaf edən rəqəmsallaşma sayəsində Avropada dövrünü başa vurmuş sayılan bir sıra sənaye sahələrini yenidən canlandırmaq, onların istehsalını müasir texnologiyaların köməyi ilə bərpa etmək və yeni iş yerlərinin açılmasına nail olmaq mümkündür. İclasda Avropanın gələcək sənaye siyasətinin əsas istiqamətləri ətrafında fikir mübadiləsi aparılacaq və sentyabr ayında bu siyasətə dair sənəd üzv ölkələrin müzakirəsinə veriləcək.

ABŞ-ın bir çox ölkələrə, eləcə də Avropa ölkələrinə yaratdığı gömrük çətinliklərinə toxunan nazir qeyd edib ki, bu gedişat heç də müsbət inkişaf sayıla bilməz: «Bu proses bütün iştirakçıları irəliyə deyil, geriyə aparır. Qarşı tərəfin əlavə gömrük qaydaları qəbul etməsinə baxmayaraq, biz körpü qurmaq istəyirik və ilk olaraq dostluq naminə əlimizi uzadırıq». ABŞ-ı ticarət müharibəsi aparmaqdan çəkinməyə çağıran M.Şrammbök iqtisadi sahədə də düşmənçiliyin deyil, dostluğun vacibliyini vurğulayıb.

krossvord





XX əsrin 60-70-ci illərində SSRİ-nin ən məşhur kvarteti

**Yuxarıdan aşağı:** 1.«Məhəllə» filmində Qüdrət obrazı ilə tanınan aktyorun adı; 2.ABŞ-da şəlalə; 3.Yunan mifologiyasında ilk canlıların əmələ gəlmiş olduğu dəhşətin tərənnümü, eyni zamanda şəxsləşdirilmiş mifik çay; 4.Roma imperatorlarının titul adı; 5.S.Vurğunun ən çox mübahisələrə səbəb olmuş poeması; 6.Bakı metrosunun «Qara Qarayev» stansiyasının əvvəlki adı; 9.Qaradağ rayonunda qəsəbə; 13.XX əsrin 60-70-ci illərində SSRİ-nin ən məşhur musiqi qruplarından biri (vokal kvartet); 15.Şahbuz rayonunda mineral bulaq; 16.«Nizami» filminin (1982) baş qəhrəmanın obrazını canlandıran görkəmli Azərbaycan və sovet opera və estrada müğənnisi, bəstəkar, SSRİ-nin xalq artistinin adı; 17.Azərbaycanın cizgi rəssamı, animator, rejissor, ssenaristin adı («Şah və xidmətçi», «Cücələrim», «Cırtdanın yeni sərgüzəşti» və s. filmləri var); 18.Fransanın eyniadlı şəhərinin futbol klubu; 20.Pulcuqlular dəstəsinə aid heyvan; 21.Sonradan kağız üzərində çap etmək üçün metal və ya taxta parçası üzərində qazılmış qabarıq çertyoj, plan (qəlib, forma). **Soldan sağa:** 1.İntibah; Avropa mədəniyyəti tarixində, Orta əsr və Yeni dövr mədəniyyətləri arasındakı bir mərhələ olaraq Qərbi və Mərkəzi Avropanı XIV əsrin əvvəlləri - XVI əsrin sonları çərçivəsində əhatə etmiş dövr; 5.Hakim, istismarçı siniflərə mənsub adam; mülkədar, bəy, zadəgan; 7.Qızılqazlar fəsiləsinə aid quş cinsi; 8. Dilimizdə şərt bildirən qoşma; 10.Kvebekdə göl (Kanada); 11.Həndəsi fiqur; 12.Niderlandın üçüncü böyük şəhəri; 14.Rusiyada Komi Respublikasında çay; 19.Azərbaycan rejissorunun, klipmeykerin adı; 21.Respublikamızda qəzet; 22.Gürcüstanın pul vahidi; 23.İdrak üçün yalnız hissi qavrayışı, təcrübəni əsas hesab edən, nəzəri ümumiləşdirmələri qəbul etməyən fəlsəfi cərəyan;24. Saylardan biri; 25.1) Amerika sahibkarı, məşhur silah şirkətinin qurucusu, 2) Kompüter detalının adı.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Duqlas (Maykl); 2.Karaoke; 3.Oazis; 4.Annaba; 5.Tələt (Bakıxanov); 6.Ceyhun (Mirzəyev); 9.Urmi; 13.Viza; 15.Şpalera; 16.Ebonit; 17.Ədalət (Nəsibov); 18.Tellur; 20.Yəmən; 21.Dinqo. **Soldan sağa:** 1.Doktorant; 5.Tac; 7.«Horizont»; 8.Alay; 10.Anons; 11.Barstou; 12.Heyva; 14.Pikşa; 19.Bəyazid; 21.Draje; 22.Nama; 23.Qlendeyl; 24.Tin - Quranın 95-ci surəsi; 25.İxtiozavr.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

# «Rusiya 2018»in finalında 6 qol: Fransa daha bir sensasiyaya imkan vermədi

**Futbol üzrə XXI dünya çempionatı başa çatdı. Futbol azarkeşlərinin bir ay ərzində böyük maraqla izlədikləri - sensasiyalı nəticələri, bol qollu qarşılaşmaları ilə diqqət çəkən mundial öz sürprizləri ilə azarkeşlərin yaddaşına həkk olundu. Xüsusən də tarixində ilk dəfə dünya çempionatının finalına vəsiqə qazanan Xorvatiya millisinin möhtəşəm çıxışı futbolsevərlərin bu kollektivə qarşı sevgisini birəbeş artırdı. Yarımfinalda güclü İngiltərə yığmasını məğlub edən balkanlılar finala çıxmaqla həqiqətən də hər kəsi təəccübləndirə bildilər.**




İyulun 14-də üçüncü yer uğrunda görüşdə Belçika və İngiltərə yığma komandaları üz-üzə gəliblər. Sankt-Peterburq şəhər stadionunda oynanılan görüşdə Belçika millisi 2:0 hesabı ilə qalib gələrək çempionatın bürünc medallarına sahib olub. İranlı referi Əlireza Faqaninin idarə etdiyi oyunda hesabı matçın 4-cü dəqiqəsində Belçika yığmasının oyunçusu Tomas Mounye açıb. İngilislərin bütün cəhdlərinə baxmayaraq, rəqibi təhlükəli əks-hücumlarla «yaxalamağa» çalışan belçikalılar görüşün 82-ci dəqiqəsində hesab arasındakı fərqi artırıblar: Kevin De Bruynenin gözəl ötürməsindən sonra qapıçı ilə təkbətək qalan Eden Hazard topu yaxın küncə göndərib - 2:0. Beləliklə, Belçika millisi tarixdə ilk dəfə dünya çempionatını medalla başa vurub, İngiltərə yığması isə 28 il əvvəl olduğu kimi, yenə də medalsız qalıb.

İyulun 15-də isə Moskvadakı «Lujniki» stadionunda keçirilən final görüşündə Fransa və Xorvatiya millilәri qarşılaşıblar. Argentinalı referi Nestor Pitananın idarə etdiyi oyunun 19-cu dəqiqəsində hesab açılıb: Fransa millisinin müdafiəçisi Rafael Varanın başla qapıya göndərdiyi top Mario Mandzukiçə toxunduqdan sonra avtoqol qeydə alınıb - 1:0. Qoldan sonra hesabı bərabərləşdirmək üçün təzyiqləri daha da artıran Xorvatiya yığması matçın 27-ci dəqiqəsində istəyinə nail olub: İvan Perişiç güvvətli zərbə ilə topu qapıdan keçirib. Lakin 38-ci dəqiqədə Antuan Qrizman penalti zərbəsi ilə Fransanı yenidən irəli çıxarıb - 2:1.

Matçın 59-cu dəqiqəsində fransızlar Pol Poqbanın vurduğu qolla hesab arasındakı fərqi iki topa çatdırıblar. 65-ci dəqiqədə isə mundialın ən gənc və perspektivli hücumçusu Kaylian Mbappe xorvatları məyus edib: onun qüvvətli zərbəsi qapıçı Daniel Subaşiç üçün əlçatmaz olub - 4:1 (yeri gəlmişkən, bu qolla Mbappe braziliyalı Peledən sonra final qarşılaşmasında 20 yaşına çatmamış fərqlənən ikinci futbolçu kimi tarixə düşüb). Oyunun 69-cu dəqiqəsində qapıçı Uqo Lorisə pressinq tətbiq edən Mario Mandzukiç qolkiperin səhvindən istifadə edərək hesab arasındakı fərqi azaltsa da (4:2) Xorvatiya millisinin bundan artığına gücü çatmayıb. Bununla da Fransa yığması tarixində ikinci dəfə dünya çempionatının kubokunu başı üzərinə qaldırmağa nail olub.

Mükafatlandırma mərasimində FIFA prezidenti Canni İnfantino, ev sahibi Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Fransa Prezidenti Emmanuel Makron və Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç iştirak ediblər.

## Gənc velosipedçilərimizin uğuru

Türkiyənin Kastamonu şəhərində 15 iyul - Demokratiya və Milli Birlik Günü münasibətilə təşkil olunan beynəlxalq turnirdə velosipedçilərimiz uğurlu çıxışı ilə yadda qalıb. Türkiyə Velosiped Federasiyası və Kastamonu Gənclər və İdman İdarəsi tərəfindən təşkil edilən yarışın gənclər kateqoriyasında fəxri kürsünün ilk 3 pilləsində Azərbaycan velosipedçiləri qərarlaşıblar.




Məşqçi Asif Həsənovun rəhbərliyi altında Türkiyədə dörd velosipedçimiz - Xankişi İsgəndərov, Mahmud Məmmədov, İvan Orlov və Əli Qurbanov çıxış ediblər. 100 km-lik marşrutu hamıdan tez qət edən Mahmud Məmmədov finiş xəttini birinci keçib. Yığmamızın digər üzvləri - İvan Orlov və Xankişi İsgəndərov isə, müvafiq olaraq, 2-3-cü yerləri tutublar. Əli Qurbanov 5-ci nəticə göstərib. Yığmamız komanda hesabında da ən yaxşı nəticə göstərib.

## Belçika turunda qələbə

Azərbaycanın şose velosipedi üzrə Elit yığmasının və «Baku Cycling Project» kontinental komandasının üzvü Kiril Pozdnyakov Belçikada keçirilən nüfuzlu «Dentergem» turunun qalibi olub. 169,6 kilometrlik məsafədən ibarət olan və 110 velosipedçinin iştirak etdiyi birgünlük yarış təmsilçimizin solo-finişi ilə yadda qalıb. Bu ilin iyununda keçirilən Azərbaycan çempionatının qalibi olmuş Kiril Pozdnyakov çempion köynəyi ilə mübarizə apardığı ilk yarışda məsafəni 3 saat 45 dəqiqə 30 saniyəyə başa vurub və ən yaxın izləyicisini 11 saniyə qabaqlayıb.



Qeyd edək ki, 1954-cü ildən etibarən təşkil edilən «Dentergem» turu Belçikanın ən nüfuzlu yarışlarından sayılır və müxtəlif illərdə planetin ən güclü velosipedçiləri bu yarışın qalib və mükafatçısı olub.

mozaika

kosmos

## Günəş atmosferinə çatacaq kosmik gəmi

Bu ilin avqustun 4-də ABŞ-ın Milli Aeronavtika və Kosmik Fəzanın Tədqiqi Agentliyi (NASA) ilk dəfə Günəş atmosferinə daxil olacaq və tədqiqat aparacaq xüsusi cihazlarla təchiz edilmiş kosmik gəmini fəzaya göndərəcək.

Günəşə ən yaxın məsafədə tədqiqat aparacaq «Parker Solar Probe» kosmik gəmisi kainatın ən nəhəng ulduzu ilə bağlı elmi ictimaiyyəti maraqlandıran bir çox sualın cavabını tapmağa kömək edəcək.



Kosmik gəminin fəzaya göndərilməsi ərəfəsində amerikan astronomu Qreyq de Forest mətbuata açıqlamasında bildirib ki, «Parker» gəmisi Günəş tacı və fəzaya axan hissəciklər, onların yaratdığı partlayışların Yer planetinə təsiri, maqnit sahələri və plazmaları daha yaxından öyrənməyə imkan yaradacaq. Bunun üçün o, qarşıdakı yeddi ildə Günəşə 6,4 milyon kilometr məsafəyədək yaxınlaşacaq və onun ətrafında elliptik orbit üzrə 24 dövrə vuracaq. Bu, ötən əsrin 70-ci illərində «Helios 2» kosmik gəmisinin Günəşə yaxınlaşdığı 43,2 milyon kilometr məsafədən qat-qat çoxdur. Beləliklə, «Parker» dünyanın ən nəhəng ulduzuna Günəş sisteminin ən yaxın planeti Merkuridən də yaxın olacaq.

Qreyq de Forest əlavə edib ki, kosmik gəminin 11,43 santimetr qalınlığında olan xüsusi örtüyü cihazları 1300 dərəcə selsiyə çatan istidən qoruyacaq. «Kosmik gəmi, həmçinin Venera planetinə 7 dəfə yaxınlaşacaq ki, bu da onun sürətini saniyədə 200 kilometrə qədər artıracaq. Günəşə ən yaxın məsafəyə isə 2024-cü ilin dekabrında çatmaq mümkün olacaq. «Parker» gəmisinin ölçüsü kiçik avtomobil qədərdir və 3-D fotoşəkilləri çəkən aparat, elektrik və maqnit sahələrini ölçən cihazla təchiz edilib. Bundan başqa, Günəş tacından gələn güclü radiasiya axınını ölçmək üçün də xüsusi avadanlıq var», - deyə astronom jurnalistlərə məlumat verib.

NASA-nın məlumatına görə, fəzaya göndərildikdən üç ay sonra Günəş atmosferinə daxil olan ilk kosmik gəmi olacaq «Parker» dekabrın əvvəlindən etibarən Yerə məlumatlar göndərəcək.

2020-ci ildə Avropa Kosmik Agentliyi də Günəşi tədqiq etmək üçün «Solar Orbiter» kosmik gəmisini fəzaya göndərəcək. Bu gəminin «Parker»lə birgə Yerə göndərəcəyi məlumatlar NASA ilə əməkdaşlıq çərçivəsində öyrəniləcək.

texnologiya

## Yeni doğulan körpələr üçün süni ağciyər

Kanada və Almaniyanın bir qrup alimi tənəffüs problemləri yaşayan yeni doğulan körpələr üçün xarici süni ağciyər yaradıb. Süni ağciyər xüsusi qaz və oksigen qarışığından deyil, havadan istifadə edir.

Yeni işləmə qanı oksigen ilə zənginləşdirən ikitərəfli məsaməli membranlardan ibarət olan mikrokanallar sistemini özündə əks etdirir. Sözügedən konstruksiyada qan nasosların köməyi ilə deyil, sərbəst şəkildə dövr edir, təzyiqin dəyişməsi nəticəsində isə qan hüceyrələrinin zədələnməsinin qarşısı alınır. Cihazın forması qanın tərkibini həmcins saxlayaraq körpələrə lazımi həcmdə çatdırılmasını təmin edir.



Alimlərin sözlərinə görə, süni ağciyərlər yeni doğulan körpələrin orqanizminin bütün zəruri tələblərini ödəmək gücündədir. Qurğunun dayanıqlığını yüksəltmək və körpənin orqanizminə düşən yükü azaltmaq üçün fiziklər onun hazırlanmasında digər materiallar da sınaqdan keçirmək niyyətindədirlər.

mədəniyyət

## Dinara Əliyeva «Bal-maskarad»la Böyük Teatrda

Oktyabrın 3-dən 7-dək Rusiya Dövlət Akademik Böyük Teatrında Cüzeppe Verdinin üçpərdəli «Bal-maskarad» operası nümayiş olunacaq. Səhnə əsərində Ameliyanın partiyasını Azərbaycanın Xalq artisti Dinara Əliyeva (soprano) ifa edəcək.

Dinara Əliyeva 2009-cu ildən Rusiyada Böyük Teatrın solistidir. O, dünyanın məşhur opera teatrı səhnələrində və konsert zallarında çıxış edir. İfaçının 2010-cu ildə Bakıda məşhur tenor Plasido Dominqo ilə birgə konserti olub. Onun C.Verdinin anadan olmasının 200 illiyi münasibətilə Fransanın Kolmar və Çexiyanın Praqa şəhərlərində «GalaVerdi» adlı solo konsertləri böyük uğurla keçib. 2015 və 2017-ci illərdə Moskvada Dinara Əliyevanın «Opera Art» beynəlxalq musiqi festivalları keçirilib.



maraqlı

## Dövlət bayraqlarında niyə bənövşəyi rəng yoxdur?

Dünyada mövcud olan 195 ölkənin heç birinin dövlət bayrağında bənövşəyi rəng yoxdur. Bunun səbəbi isə vaxtilə bənövşəyi rəngli boyanın böyük zəhmət hesabına əldə edilməsi və baha başa gəlməsi olub. Bu rəngdən hazırlanan boyalardan yalnız kral ailələrinin geyimlərində istifadə olunub.

AZƏRTAC BBC-yə istinadla xəbər verir ki, ilk dəfə bu rəngdən Suriya və Livanın dəniz sahillərində yaşamış finikiyalılar istifadə ediblər. Təkcə bu bölgədə olan dəniz ilbizindən alınan bənövşəyi rəngli boyalar hər zaman öz bahalılığı ilə seçilib. Livan ərazisində yerləşən Sur antik şəhərindəki ustalar bu boyanın bir qramını əldə etmək üçün on minlərlə ilbizdən istifadə ediblər. Gözoxşayan və bahalı rəng isə tarixboyu krallıq və imperiyaların rəmzinə çevrilib. Vaxtilə «Finikiya rəngi» kimi tanınan bənövşəyi rəngdən alınan boya parçanın üzərində uzun müddət parlaqlığını qorumasına və günəş işığında cazibədarlığı ilə zəngin insanlar arasında populyar olub. Bu rəng Roma, Bizans və Fars imperatorluqları ilə yanaşı, İngiltərə kral ailəsinin də rəmzinə çevrilib. Kraliça I Elizabet isə özü və ailə üzvləri istisna olmaqla heç kimə bənövşəyi rəngdə paltar geyinməyə icazə verməyib. Onun hakimiyyəti dövründə (1533-1603) bu rəngdə boyanın yarım kiloqramı 1,5 kiloqram qızıla bərabər olub.



Çox bahalı olan bənövşəyi rəngli boyadan hər kəsin istifadə etməsi isə XIX əsrdə ingilis kimyaçısı Uilyam Henri Perkinin kəşfi sayəsində mümkün olub. Alimin Londonda laboratoriyada sarılıq xəstəliyinə qarşı dərman tapılması üzrə tədqiqatı zamanı səhvən sintetik bənövşəyi piqment üzə çıxıb. Bənövşəyi rəngli boyanın bahalı olduğunu bilən Perkin qısa müddətdə fabrik yaradıb və kütləvi istehsala başlayıb. Bu kəşfdən sonra bənövşəyi rəng də ucuz və adi boyalardan birinə çevrilib.

**Müdriklər deyib ki...**

***«Ölməzlik meyvəsi insanın zəhmət tari tökdüyü yerdə yetişər».***

***Zahirəddin Babur (1483-1560)***

